ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 34 (1516) ❖ Cümə, 13 noyabr 2026-cı il ❖ Qəzet 1984-cü ildən nəşr olunur



Türkiyə-Azərbaycan birliyi sabitlik, istiqrar, əməkdaşlıq, təhlükəsizlik amilidir

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev noyabrın 8-də Zəfər Günü münasibətilə Xankəndi şəhərində Zəfər abidəsini ziyarət edərək önünə əklil qoyub. Dövlətimizin başçısı Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edib.

Zəfər günü münasibətilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan həmin gün Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

Fəxri qarovul dəstəsinin düzüldüyü Füzuli Beynəlxalq Hava Limanında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qarşılayıblar.

Rəsmi qarşılanma mərasimindən sonra dövlət başçılarının təkbətək görüşü keçirilib.

Sonra Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Şuşa qalası önündə foto çəkdiriblər.

Dövlət başçıları Xankəndi şəhərində Zəfər abidəsini də ziyarət edərək önünə əklillər qoyublar.

Daha sonra Prezidenti İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Şuşada mətbuata bəyanatlarla çıxış ediblər.

Prezident İlham Əliyev bəyanatında Şuşanın azad edilməsinin həm tarixi, həm də strateji əhəmiyyətini vurğulayıb. Dövlət başçısı Vətən müharibəsinin ilk günlərindən Azərbaycanın yanında olan Türkiyənin siyasi və mənəvi dəstəyini yüksək qiymətləndirərək, Prezident Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" bəyanatının Azərbaycan xalqı tərəfindən heç vaxt unudulmayacağını qeyd edib.

"Azərbaycan Ordusu 44 gün ərzində 300-dən çox şəhər və kəndi döyüş meydanında azad etmişdir. Bu döyüşlərdə 3000 şəhid olmuşdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qanı yerdə qalmadı, onların intiqamı döyüş meydanında alındı və tarixi ədalət bərpa edildi... 44 günlük Vətən müharibəsi Türkiyə-Azərbaycan birliyini bir daha göstərdi. Ondan yeddi ay sonra burada, Şuşada tarixi Şuşa Bəyannaməsi imzalandı və bu, bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır. Halbuki onsuz da biz hər zaman müttəfiq idik. Türkiyə və Azərbaycan xalqları qardaş xalqlardır və dəfələrlə demişəm ki, dünyada bizim qədər bir-birinə bağlı olan xalqlar da yoxdur, dövlətlər də yoxdur. Bu, bizim böyük sərvətimizdir. Şuşa Bəyannaməsi, sadəcə olaraq, bu tarixi, mədəni əlaqələri rəsmi çərçivəyə salmışdır", - deyə dövlətimizin başçısı vurğulayıb.

Prezident İlham Əliyev qeyd edib ki, Türkiyə dövləti Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə böyük gücə çevrilib, bölgədə gedən proseslərdə, eyni zamanda, dünya əhəmiyyətli məsələlərdə də söz sahibidir: "Türkiyənin güclü iqtisadiyyatı, güclü sənaye potensialı, siyasi çəkisi bu gün reallıqdır və bizi çox sevindirir, bizi gücləndirir... Böyük coğrafiyanı əhatə edən ərazidə Türkiyə-Azərbaycan birliyi önəmli bir amildir. Bu, sabitlik, istiqrar, əməkdaşlıq, təhlükəsizlik amilidir... Səfərin əsas nəticəsi məhz dediyim kimidir: "Türkiyə-Azərbaycan birliyi əbədidir və sarsılmazdır".

Sonra çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qarabağ Zəfərinin altıncı ildönümündə Şuşada olmaqdan məmnunluğunu ifadə edərək, şəhərin tarixi, təbii və mədəni əhəmiyyətini vurğulayıb. O, Qarabağın azadlığı uğrunda canlarından keçən şəhidlərin xatirəsini ehtiramla yad edib, qazilərə təşəkkürünü bildirərək onlara cansağlığı və uzun ömür arzulayıb.

"Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər tarixin müxtəlif sınaqlarından keçərək bugünkü yüksək səviyyəyə çatmışdır. "Bir millət, iki dövlət" şüarı ilə tərif etdiyimiz bu könül birliyi ortaq keçmişimizdən aldığı güclə sabahlarımıza işıq tutan sönməz bir məşəldir. Qardaşlığımız ortaq dilin, tarixin və mədəniyyətin daha çox fövqündədir. Bakının sevincini Ankaranın sevinci, Şuşanın qürurunu bütün millətimizin qüruru bilməyimiz bundan irəli gəlir", - deyə Türkiyə Prezidenti vurğulayıb.

Qeyd edib ki, 2021-ci il iyunun 15-də Şuşada imzaladığımız Bəyannamə nəticəsində müttəfiqlik münasibətləri ilə möhkəmləndirdiyimiz bu qardaşlığımızı zəiflətmək istəyənlər dünən olduğu kimi bu gün də, sabah da hədəflərinə əsla çata bilməyəcəklər. Allahın izni ilə birliyimiz daim sarsılmaz olacaqdır. Biz bu missiyanı, eyni zamanda, Türk dünyasında da hakim mövqeyə gətirmək üçün var gücümüzlə çalışırıq: "Türk Dövlətləri Təşkilatımızın bu gün çatdığı yüksək səviyyə ortaq iradəmizin və səylərimizin ən bariz nəticəsidir. Fürsətdən istifadə edərək, sədrliyi dövründə Türk dünyasının birlik və möhkəmliyi üçün göstərdiyi səylərə görə Azərbaycana təşəkkür edirəm. İnşallah, biz də sədrliyimiz dövründə təşkilatın daha güclü, daha institusional quruma çevrilməsi üçün səy göstərəcəyik... Biz Azərbaycanın haqlı mübarizəsini sahibləndiyimiz kimi, bölgəmizdə dayanıqlı sülhün bərqərar olması yönündə səmimi səylərini də dəstəkləyirik. Qarabağın yenidən bərpası və bölgənin əvvəlki gözəlliyinə qovuşması üçün Azərbaycanın ortaya qoyduğu fəaliyyəti böyük təqdirlə izləyirik".

Həmin gün dövlət başçıları Xocalı şəhərində Xocalı Soyqırımı Memorialını ziyarət ediblər.

Azərbaycan və Türkiyə prezidentləri Memorialın önünə əklillər qoyublar. Prezident Rəcəb Tayyib Ərdoğan Memorialın xatirə kitabına ürək sözlərini yazıb.

Komplekslə tanışlıq zamanı bildirilib ki, Xocalı Soyqırımı Memorialı Prezident İlham Əliyevin 2025-ci ilin fevralında imzaladığı Sərəncama əsasən, Xocalı faciəsi qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, tarixi həqiqətlərin gələcək nəsillərə çatdırılması və milli yaddaşın qorunması məqsədilə yaradılıb.

Noyabrın 8-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva, Prezident Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan Xankəndidə Vətən Müharibəsi qəhrəmanları ilə, "Qarabağ" və "Zəfər" ordenlərinə layiq görülmüş hərbi qulluqçularla görüşüblər.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri noyabrın 8-də başa çatıb.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin Zəfər Günü münasibətilə Akademiya əməkdaşlarına təbriki

Hörmətli Akademiya əməkdaşları!

8 Noyabr Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixində və ölkəmizin müstəqillik salnaməsində xüsusi yer tutan möhtəşəm Zəfərin təntənəsidir. Bu tarixi Zəfər xalqımızın Vətən sevgisinin, milli həmrəyliyinin, sarsılmaz iradəsinin və dövlətimizin qüdrətinin parlaq təcəssümüdür.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı Zəfər ərazi bütövlüyümüzün və tarixi ədalətin bərpası ilə nəticələnmiş, dövlətimizin beynəlxalq nüfuzunu daha da yüksəltmişdir.

Zəfər Günü həm də Azərbaycan xalqının milli birliyinin, tarixi yaddaşının və dövlətçilik düşüncəsinin təntənəsidir. Bu tarixi Zəfər müstəqil Azərbaycan dövlətinin gələcək inkişafı üçün yeni və geniş imkanlar yaratmışdır. Ötən 6 il ərzində Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən geniş miqyaslı quruculuq işləri, dönmədən həyata keçirilən Böyük Qayıdış prosesləri Zəfərimizin tarixi nəticələrinin real təcəssümüdür.

Zəfər tariximizin salnaməsinin yazılması, onun milli-mənəvi və siyasi-tarixi əhəmiyyətinin gələcək nəsillərə çatdırılması Azərbaycan Milli Elmlər Akademiyasının alimlərinin qarşısında duran mühüm vəzifələrdəndir. Son illərdə bu istiqamətdə mühüm nəşrlər ərsəyə gətirilmiş, Qarabağın zəngin tarixi-mədəni irsinin öyrənilməsinə dair fundamental tədqiqatlar aparılmış, kitablar çap olunmuşdur.

Bu əlamətdar gündə torpaqlarımızın azadlığı uğrunda həyatlarını fəda edən şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad edir, qazilərimizə can sağlığı arzulayır, müharibə iştirakçılarına dərin minnətdarlığımızı bildiririk.

Bu gün üçrəngli Dövlət Bayrağımız əzəli torpaqlarımızda əbədi olaraq dalğalanır!

8 Noyabr - Zəfər Bayramımız mübarək olsun!

Hörmətlə,

İsa HƏBİBBƏYLİ
Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik

Akademiya əməkdaşları üçün "44" filminin xüsusi nümayişi

8 Noyabr - Zəfər Günü münasibətilə Alov qüllələrində yerləşən "Park Cinema" kinoteatrlar şəbəkəsində Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşları üçün "44" bədii filminin xüsusi nümayişi təşkil olunub.



AMEA-nın Azad Həmkarlar İttifaqı və AMEA-nın Rəyasət Heyəti aparatının Elmin populyarlaşdırılması şöbəsinin təşkilatçılığı ilə təşkil olunan filmin nümayişindən öncə Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşlarının Zəfər Gününə həsr olunmuş rəsm əsərlərindən ibarət sərgiyə baxış keçirilib.

Tədbirdə giriş nitqi ilə çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Azərbaycan Milli Elmlər Akademiyasında 8 Noyabr - Zəfər Gününə həsr olunmuş silsilə tədbirlərin keçirildiyini diqqətə çatdırıb. Akademik İsa Həbibbəyli qeyd edib ki, indiyədək AMEA əməkdaşları üçün Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında, Azərbaycan Rəssamlar İttifaqında, Səməd Vurğun adına Yaradıcılıq Evində və Bakının digər müxtəlif məkanlarında rəsm sərgiləri, opera və tamaşaların nümayişi kimi mədəni tədbirlər təşkil olunub və bu gün isə ilk dəfə olaraq film nümayişi keçirilir.



Akademik İsa Həbibbəyli bildirib ki, İkinci Qarabağ müharibəsində erməni işğalçıları üzərində qazanılan 44 günlük Zəfər Azərbaycanın tarixində və taleyində alternativi olmayan, ölkəmizin minillik tarixinin ən şərəfli və möhtəşəm hadisələrindən biridir. Natiq vurğulayıb ki, Qarabağ Zəfəri Ali Baş Komandan İlham Əliyevin Azərbaycan xalqına qazandırdığı böyük və misilsiz qələbədir və Vətən müharibəsində əldə edilən zəfər cənab Prezidenti qalib xalqın qalib lideri səviyyəsinə yüksəldib, Azərbaycan Ordusu isə dünya miqyasında qalib ordular sırasında özünə layiqli yer tutub.

Vətən müharibəsində Azərbaycanın özünün tarixi, əzəli və əbədi torpaqlarını işğaldan azad etmək uğrunda mübarizə apardığını deyən akademik İsa Həbibbəyli müharibənin məhz bu səbəblərə görə ədalətli müharibə olduğunu söyləyib. Vətən müharibəsinin Azərbaycan xalqının möhtəşəm birliyini bütün dünyaya nümayiş etdirdiyini vurğulayan akademik İsa Həbibbəyli xalqın öz lideri, Ali Baş Komandan İlham Əliyevin ətrafında "Dəmir yumruq" kimi sıx birləşərək qələbənin əldə olunması üçün dövlət başçısına və ordumuza hərtərəfli dəstək verdiyini deyib.

"Vətən müharibəsi eyni zamanda Azərbaycançılıq idealının təntənəsi olub. Azərbaycançılıq anlayışı Azərbaycan xalqının milli birliyini, ortaq dəyərlərini və gələcək hədəflərini özündə birləşdirir. Bu anlayış Azərbaycanda yaşayan bütün xalqları, etnik qrupları və azsaylı xalqların nümayəndələrini vahid məfkurə ətrafında birləşdirir. Vətən müharibəsi bu möhtəşəm birliyin təntənəli ifadəsi olub. Müharibə zamanı Azərbaycanda yaşayan bütün xalqların və etnik qrupların nümayəndələri Vətənimiz uğrunda döyüşüblər. Qazilərimiz və şəhidlərimiz arasında da ölkədə yaşayan müxtəlif xalqların, etnik qrupların və azsaylı xalqların nümayəndələri var", - deyə akademik İsa Həbibbəyli diqqətə çatdırıb.

Akademik İsa Həbibbəyli çıxışında İkinci Qarabağ müharibəsinin hərbi texnologiyalar baxımından da mühüm tarixi əhəmiyyət daşıdığını söyləyib. Bildirib ki, Vətən müharibəsi yeni texnologiyalar və müasir metodlar əsasında aparılan ilk müharibələrdən biridir və Azərbaycan bu sahədə də öz təcrübəsini bütün dünyaya nümayiş etdirərək ərazi bütövlüyünü tam təmin edib.

Akademik İsa Həbibbəyli bildirib ki, bu gün alimlərimizin, ziyalılarımızın əsas vəzifəsi dövlət başçısının ətrafında daha da sıx birləşərək ölkəmizdə həyata keçirilən siyasəti ziyalı mövqeyindən dəstəkləmək və şərh etmək, Vətən müharibəsinin tarixini salnamələrə çevirmək, bu tarixi hadisələri elmi əsərlərdə əks etdirmək, dünya dillərinə tərcümə edərək beynəlxalq aləmdə yaymaqdır.

Akademik əlavə edib ki, ziyalıların qarşısında duran mühüm vəzifələrdən biri də gələcək nəsilləri vətənpərvərlik ruhunda yetişdirmək, gənc nəslin dövlətçiliyimizə sədaqət hissi ilə böyüdülməsinə, bayrağına, dövlətinə, himninə, ərazi bütövlüyünə, Prezidentinə və liderinə sadiq vətəndaşlar kimi formalaşdırılmasına akademik dəstək verməkdir.

Vətən müharibəsinə həsr olunmuş "44" filminin bu istiqamətdə mühüm rol oynayacağını söyləyən akademik İsa Həbibbəyli ekran əsərinin Azərbaycan kinematoqrafiyasının son nailiyyətləri əsasında ərsəyə gəldiyini vurğulayıb. Bildirib ki, film Azərbaycanda yeni nümayiş olunmağa başlasa da, artıq geniş populyarlıq qazanıb.

Akademik İsa Həbibbəyli filmin ərsəyə gəlməsinə göstərilən dəstəyə görə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyevaya, eləcə də filmin yaradıcı heyətinə Azərbaycan Milli Elmlər Akademiyasının kollektivi adından minnətdarlığını ifadə edib.

Daha sonra "44" filmi nümayiş etdirilib.

Qeyd edək ki, film Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Kino Agentliyi və Bakı Media Mərkəzinin dəstəyi ilə ərsəyə gəlib. "44" bədii filmi istehsal miqyası, cəlb olunmuş mütəxəssislərin sayı, çəkiliş coğrafiyası, istifadə olunan texniki resursların həcmi və beynəlxalq əməkdaşlıq səviyyəsi baxımından Azərbaycanda son illərin ən böyük kinematoqrafik layihələrindəndir.

Filmin bədii rəhbəri Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov, quruluşçu rejissorları İsmayıl Səfərəli, Maksim Smetana, ssenari müəllifləri Anar Ələkbərov, İsmayıl İman, prodüseri Orman Əliyev, quruluşçu operator Oleksandr Pozdnyakov, montaj rejissoru Elşad Rəhimov, bəstəkarı Ruslan Ağababayev, səs rejissoru Teymur Kərimovdur.

AMEA-nın rəhbərliyi və kollektivi İkinci Qarabağ müharibəsinə və tarixi Zəfərə həsr edilmiş "44" bədii filmini müasir mərhələdə Azərbaycan kinematoqrafiyasının mühüm nailiyyəti kimi yüksək qiymətləndiriblər.

AMEA-nın kollektivi Zəfər abidəsini ziyarət edib

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, elmi müəssisə və təşkilatların rəhbərləri və gənc alimlər 8 Noyabr - Zəfər Günü ilə əlaqədar Zəfər Parkını ziyarət ediblər.





Elmi ictimaiyyətin nümayəndələri Zəfər abidəsinin önünə gül dəstələri qoyub, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsini ehtiramla yad ediblər.

Birinci Türkoloji Qurultay -100

Türkoloji sənətşünaslıq: problemlər və perspektivlər

V beynəlxalq elmi konfrans

AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun təşkilatçılığı ilə Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türkoloji sənətşünaslıq: problemlər və perspektivlər" mövzusunda V beynəlxalq elmi konfrans keçirilib.







AMEA-nın Mərkəzi Elmi Kitabxanasında baş tutan tədbiri giriş nitqi ilə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açaraq Birinci Türkoloji Qurultayın 100 illiyinin qeyd olunmasının Türk dünyası üçün tarixi və elmi əhəmiyyət kəsb etdiyini vurğulayıb. O, ölkə Prezidenti İlham Əliyevin "Birinci Türkoloji Qurultayın 100 illiyinin qeyd edilməsi haqqında" Sərəncamı çərçivəsində il ərzində müxtəlif səviyyəli tədbirlərin təşkil olunduğunu bildirib. AMEA prezidenti bu yubiley münasibətilə altı müstəqil türk dövlətinin rəhbərinin təbrik məktubları ünvanlamasını Türk dünyasında həmrəyliyin, birliyin və ortaq hədəflər ətrafında dövlət səviyyəsində əməkdaşlığın güclənməsinin mühüm göstəricisi kimi dəyərləndirib.

Akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, 1926-cı il fevralın 26-dan martın 6-dək Bakıda keçirilən Birinci Türkoloji Qurultayda dünyanın 26 ölkəsindən 131 nümayəndə iştirak edib, 80-dən çox məruzə dinlənilib. Qurultay türk xalqlarının dilini, ədəbiyyatını, tarixini, folklorunu, fəlsəfəsini, etnoqrafiyasını və incəsənətini öyrənən humanitar elmləri vahid türkoloji sistem çərçivəsində birləşdirən mühüm elmi platforma rolunu oynayıb. Qurultayın əsas tarixi xidmətlərindən biri türkologiyanın elmi istiqamətlərini və gələcək inkişaf hədəflərini müəyyənləşdirmək olub.

AMEA rəhbəri sovet hakimiyyəti dövründə türkoloji elmlərin əhatə dairəsinin məqsədyönlü şəkildə məhdudlaşdırıldığını, türk xalqlarının elmi-mədəni yaxınlaşmasına mane olan siyasi repressiyaların isə türkoloji fikrin inkişafına ağır zərbə vurduğunu qeyd edib. Bildirib ki, 1930-cu illərin repressiyaları nəticəsində çoxsaylı görkəmli türkoloq alimlərin, ziyalıların və mütəfəkkirlərin təqiblərə məruz qalması bu sahənin inkişafında ciddi fasilə yaradıb. Buna baxmayaraq, sonrakı dövrlərdə türkologiyanın ayrı-ayrı istiqamətlərində elmi fəaliyyət tədricən bərpa olunub.

"Birinci Türkoloji Qurultayın 100 illiyinin qeyd olunmasında əsas məqsədlərdən biri türkoloji elmlər sisteminin ilkin mahiyyətinin bərpası, müasir dövrün tələblərinə uyğun inkişaf etdirilməsidir", - deyən akademik İsa Həbibbəyli bu istiqamətdə AMEA-da son illərdə mühüm addımların atıldığını, türk xalqlarının tarixi, mədəniyyəti, fəlsəfəsi və ədəbi irsinin öyrənilməsi üzrə müxtəlif elmi mərkəz və strukturların fəaliyyət göstərdiyini diqqətə çatdırıb.

O, ortaq türk əlifbası ideyasının da Birinci Türkoloji Qurultayın mühüm müzakirə istiqamətlərindən biri olduğunu xatırladıb. Vurğulayıb ki, Qurultayda türk xalqlarının vahid latın qrafikalı əlifbaya keçidi məsələsi geniş müzakirə olunub və bu istiqamətdə qəbul edilən qərarlar sonrakı dövrdə əlifba islahatları üçün mühüm zəmin yaradıb. Lakin sovet hakimiyyətinin sonrakı mərhələdə kiril əlifbasına keçidi təmin etməsi türk xalqlarının yazılı ünsiyyət və mədəni inteqrasiya imkanlarını məhdudlaşdırıb.

Akademik İsa Həbibbəyli "Türkoloji sənətşünaslıq: problemlər və perspektivlər" mövzusunda keçirilən konfransın əhəmiyyətinə toxunaraq bildirib ki, bu elmi platforma Birinci Türkoloji Qurultayın müəyyən etdiyi geniş elmi yanaşmanın müasir şəraitdə bərpasına və inkişafına xidmət edir. Türkoloji sənətşünaslıq yalnız sənət sahəsindəki ortaq problemlərin araşdırılması deyil, həm də türk xalqlarının mədəni birliyinin, qarşılıqlı anlaşmasının və inteqrasiyasının möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

AMEA rəhbəri vurğulayıb ki, türkoloji sənətşünaslıq ayrıca elmi istiqamət kimi formalaşmaqla yanaşı, türkoloji teatrşünaslıq, musiqişünaslıq, ədəbiyyatşünaslıq və tarixşünaslıq kimi sahələrin də konseptual inkişafına yeni imkanlar açır. O, bu baxımdan artıq beşinci dəfə keçirilən beynəlxalq konfransın mövzusunun elmi-nəzəri əsaslarının dərinləşdirilməsinə, yeni tədqiqat yanaşmalarının formalaşmasına və türkoloji elmlər sisteminin zənginləşdirilməsinə mühüm töhfə verdiyini bildirib.

Daha sonra Memarlıq və İncəsənət İnstitutunun direktoru AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə "AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun türkoloji tədqiqatları" mövzusunda məruzə ilə çıxış edib.

Ərtegin Salamzadə türkoloji sənətşünaslıq istiqamətində aparılan tədqiqatların əhəmiyyətindən danışaraq, bu sahədə beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb. O, türk sənəti, tarixi və folklorunun araşdırılması sahəsində uzun illərdir fəaliyyət göstərən türkiyəli tədqiqatçı, Aydın Adnan Menderes Universitetinin professoru Ahmet Aytaçın xidmətlərini xüsusi qeyd edib. Bildirib ki, Ahmet Aytaçın təşəbbüsü və iştirakı ilə müxtəlif ölkələrdə təşkil olunan beynəlxalq konfranslar Türk dünyasının sənət və mədəniyyət irsinin öyrənilməsinə, Azərbaycan və Türkiyə arasında elmi əlaqələrin möhkəmlənməsinə mühüm töhfə verib.

Daha sonra professor Ahmet Aytaç Türk dünyasının sənət və mədəniyyətinin tədqiqi, eləcə də Azərbaycan-Türkiyə elmi əlaqələrinin inkişafı sahəsində xidmətlərinə görə AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun fəxri professoru adına layiq görülüb.

İnstitutun inkişaf tarixi və elmi fəaliyyət istiqamətlərindən bəhs edən professor Ərtegin Salamzadə qeyd edib ki, 85 ildən artıq inkişaf yolu keçmiş bu elmi müəssisədə Azərbaycan elminin və mədəniyyətinin görkəmli nümayəndələri çalışıb, müxtəlif istiqamətlərdə fundamental tədqiqatlar aparılıb, çoxsaylı monoqrafiyalar və elmi məqalələr nəşr etdirilib. O, institutun fəaliyyətində türkoloji tədqiqatların formalaşması və inkişafına xüsusi diqqət çəkərək, bu sahədə müxtəlif illərdə ərsəyə gəlmiş elmi nəşrləri və araşdırmaları konfrans iştirakçılarının diqqətinə çatdırıb.

İnstitut direktoru türkoloji sənətşünaslıq istiqamətində kitabların, elmi topluların və digər nəşrlərin hazırlanmasının Türk dünyasının ortaq mədəni irsinin öyrənilməsi və təbliği baxımından mühüm əhəmiyyət kəsb etdiyini söyləyib. Bu nəşrlərin müxtəlif türk xalqlarının sənət ənənələrinin müqayisəli şəkildə araşdırılmasına, ortaq və fərqli xüsusiyyətlərin müəyyənləşdirilməsinə imkan yaratdığını vurğulayıb. O, Azərbaycan və Özbəkistan alimlərinin birgə hazırladıqları nəşrləri bu sahədə əməkdaşlığın uğurlu nümunəsi kimi təqdim edib.

Türk xalqlarının qədim məskunlaşma areallarına da toxunan professor Ərtegin Salamzadə bu istiqamətdə hazırlanmış xəritəni təqdim edərək tarixi-coğrafi tədqiqatların türkoloji sənətşünaslıq üçün əhəmiyyətini diqqətə çatdırıb. Alim türk xalqlarının incəsənətində müşahidə olunan ortaq bədii xüsusiyyətlərdən, xüsusilə heyvani üslubdan, balballar heykəltəraşlığından və müxtəlif sənət nümunələrindəki oxşarlıqlardan bəhs edib.

Professor Ərtegin Salamzadə qeyd edib ki, türk xalqlarının sənət irsində rast gəlinən bu ortaq elementlərin müqayisəli və kompleks şəkildə araşdırılması onların vahid mədəni köklərinin, estetik dünyagörüşünün və bədii ənənələrinin öyrənilməsi baxımından mühüm elmi əhəmiyyətə malikdir. Bu baxımdan ayrı-ayrı ölkələrin alimləri arasında əlaqələrin gücləndirilməsi, ortaq tədqiqat layihələrinin həyata keçirilməsi və birgə elmi nəşrlərin hazırlanması türkoloji sənətşünaslığın inkişafının əsas istiqamətlərindən biridir.

Tədbirdə, həmçinin professor Ahmet Aytaç "Türk dünyası ortaq yaradış və tamğalarının modern sənətin anlam dünyasındakı yeri: bir yontəm önərisi", özbəkistanlı akademik Kamola Akilova "Türk xalqlarının ənənəvi zərgərlik sənətində arxetipik obrazların probleminə dair", sənətşünaslıq doktoru, professor Rəna Abdullayeva "İncəsənət və mədəniyyət problemləri" jurnalında türk sənəti", sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Xəzər Zeynalov "Azərbaycan incəsənətində Atatürk obrazı", sənətşünaslıq üzrə fəlsəfə doktoru Ramil Quliyev "Türk təsviri sənətində Dədə Qorqud obrazı", türkmənistanlı professor Ogulceren Hacıyeva "Koroğlu obrazı şəhər mühiti abidələrində və təsviri sənətdə" mövzularında məruzələrlə çıxış ediblər.



Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyliyə

Əziz dostum,

Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətində akademiklərin və dostların iştirakı ilə keçirilən tədbirdə akademik İsa Həbibbəylinin təqdim etdiyi döş nişanına layiq görülmək mənim üçün böyük qürur və şərəfdir.

Kaş ki, bu sevinci Zəfər Günü naminə canlarından keçmiş qəhrəmanlarımızın anaları və ailə üzvləri ilə də bölüşə biləydim.

Hörmətlə,

Reza DEQATİ


AMEA prezidentinin MEK-ə hədiyyə etdiyi şəxsi kolleksiyasının kataloqunun I cildi hazırlanıb

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, Əməkdar elm xadimi, akademik İsa Həbibbəylinin Mərkəzi Elmi Kitabxanaya (MEK) hədiyyə etdiyi şəxsi kolleksiyasının kataloqunun I cildi hazırlanıb.

Kitabda akademikin həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri də öz əksini tapıb.

Görkəmli alimin şəxsi kitabxanasında iyirmi mindən çox kitab vardır. Ədəbiyyatşünaslıq elminin inkişafında mühüm yeri və rolu olan İsa Həbibbəyli kitabxanasından 2022-ci, 2024-cü və 2025-ci illərdə 1933 sayda ədəbiyyatı AMEA-nın Mərkəzi Elmi Kitatabxanasına hədiyyə edib. Hədiyyə edilən ədəbiyyat kolleksiya şəklində toplanaraq MEK-in Akademik Kitabxanasının "Kolleksiyalar" bölməsində mühafizə olunur. Ədəbiyyatın sayı çox olduğundan kolleksiyanın kataloqunun nəşri çoxcildli nəzərdə tutulub.

Kolleksiyaya Azərbaycan, rus, ingilis, türk alman, özbək və digər dillərdə çap olunmuş ədəbiyyatşünaslıq, tarix, incəsənət, şərqşünaslıq, fəlsəfə, dilçilik və s. elm sahələrinə aid çox sayda ədəbiyyat daxildir.



Təqdim edilən I cilddə 1281 ədəd müxtəlif adda daxil olan nəşrlər sırasında "Nizami Gəncəvi İli"nə aid ədəbiyyatlar, monoqrafiyalar, albomlar, dərs vəsaitləri, metodik tövsiyələr, biblioqrafiyalar, alimin öz kitabları və onun haqqında yazılmış kitablar, bədii əsərlər, "Molla Nəsrəddin" jurnalları, Azərbaycan Respublikası Milli Məclis iclaslarının protokolları və stenoqramaları yer alır.

Bu cilddə akademik İsa Həbibbəylinin həyatının kitabxana ilə bağlı bir çox anlarını əks etdirən fotoşəkillər verilib.

Daim mütaliə ilə məşğul olan akademik İsa Həbibbəyli həmişə kitaba və kitabxanalara xüsusi diqqət yetirdiyindən şəxsi kitabxanasını qədim, dəyərli və maraqlı əsərlərlə zənginləşdirməkdədir.

Kataloqun elmi redaktoru MEK-in direktoru, texnika elmləri doktoru Hüseyn Hüseynov, ixtisas redaktoru Firəngiz Məhərrəmova, tərtibçiləri isə Biblioqrafiya şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Aytən Əliyeva və şöbənin əməkdaşı Aygün Əliyevadır.

"Elm" nəşriyyatında çapdan çıxan kataloq müxtəlif elm sahələrində çalışan alim və mütəxəssislər, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulub. Qeyd edək ki, nəşrin elektron versiyası ilə MEK-in rəsmi saytının "Elektron kitablar" bölməsində tanış olmaq mümkündür.

Xankəndidən gələn mesajlar və Qarabağa elmin qayıdışı

8 Noyabr - Zəfər Gününün altıncı ildönümünü qeyd etdiyimiz bu gün Azərbaycan xalqının yaddaşında silinməz iz qoymuş tarixi hadisələri bir daha xatırlayır, keçdiyimiz yolun nəticələrini və qarşıda duran vəzifələri dərk edirik. Prezident İlham Əliyevin bu gün Xankəndidən Azərbaycan xalqına ünvanladığı təbrik müraciəti həm tarixi qürur, həm də gələcəyə dair düşüncələr baxımından xüsusi əhəmiyyət daşıyır. Dövlət başçısının müraciətini məhz Xankəndidə, şanlı Zəfərimizin şərəfinə ucaldılmış Zəfər tağının önündə etməsi dərin rəmzi məna daşıyır. Vaxtilə separatizmin və Azərbaycan xalqının iradəsinə qarşı yönəlmiş siyasətin mərkəzlərindən biri olan Xankəndi bu gün müstəqil Azərbaycanın suverenliyinin, dövlətçilik iradəsinin və quruculuq əzminin təcəssümünə çevrilib.



Bu fikirləri açıqlamasında akademik İradə Hüseynova bildirib.

O qeyd edib ki, Prezident İlham Əliyevin illər əvvəl qətiyyətlə səsləndirdiyi "Qarabağ Azərbaycandır və nida" bəyanatının öz tarixi təsdiqini tapması dövlətimizin iradəsinin, xalqımızın əzminin və milli birliyimizin ifadəsidir. Bu gün həmin şəhərdə Zəfər tağının ucaldılması, keçmiş separatçı idarəetmə binasında Zəfər Muzeyinin yaradılması qərarı tarixə münasibətin necə dəyişdiyini göstərir. Bir vaxtlar təcavüzkar siyasətin mərkəzi olmuş binanın xalqımızın qəhrəmanlıq salnaməsini yaşadacaq muzeyə çevrilməsi xüsusi məna daşıyır.

"Bu Qələbənin arxasında illərlə həyata keçirilmiş dövlət quruculuğu, iqtisadi inkişaf, güclü ordunun formalaşdırılması, beynəlxalq nüfuzun yüksəldilməsi və fəal diplomatiya dayanırdı. Ən başlıcası isə xalqın öz dövlətinə, ordusuna və Ali Baş Komandanına inamı, milli ruhu və sarsılmaz birliyi idi. İşğal dövründə müxtəlif təzyiqlərə baxmayaraq, Prezident İlham Əliyevin prinsipial mövqeyindən geri çəkilməməsi tarixi Qələbəmizin əsas şərtlərindən biri oldu", - deyə akademik vurğulayıb.

O qeyd edib ki, bu gün Zəfər Azərbaycanın gələcək inkişafının strateji başlanğıcıdır. Azad edilmiş torpaqların dirçəldilməsi, doğma yurdlarından didərgin düşmüş insanların öz evlərinə qayıtması və burada müasir yaşayış mühitinin yaradılması istiqamətində genişmiqyaslı işlər görülür. "Böyük Qayıdış" Proqramı çərçivəsində artıq 100 minə yaxın insanın azad edilmiş ərazilərdə yaşaması, təhsil alması və çalışması bu prosesin miqyasını göstərir.

"Bir alim kimi, bu tarixi prosesin xüsusi əhəmiyyət daşıyan istiqamətlərindən birini Qarabağa elmin qayıdışında görürəm. Torpaqlarımızın azad edilməsi onların təbii sərvətlərinin, ekosistemlərinin və biomüxtəlifliyinin öyrənilməsi, qorunması və bərpası istiqamətində yeni elmi məsuliyyət yaradıb. 2020-ci ildən sonra Azərbaycan alimlərinin Qarabağ və Şərqi Zəngəzurda apardıqları tədqiqatlar sistemli xarakter alıb. Biologiya, botanika, zoologiya, mikrobiologiya, torpaqşünaslıq, ekologiya, coğrafiya və radioekologiya sahələrinin mütəxəssisləri regionun təbii potensialının öyrənilməsinə cəlb olunublar. 2020-2022-ci illərdə keçirilmiş beynəlxalq elmi konfranslar bu istiqamətdə mühüm elmi platforma yaratdı. Sonrakı tədqiqatlar nəticəsində Qarabağ və Şərqi Zəngəzurun flora və faunasının zənginliyi, nadir və endemik növlərin yayılma arealları, ekosistemlərin vəziyyəti barədə yeni məlumatlar əldə edilib. Bu nəticələrin elmi nəşrlərdə, xəritələrdə və məlumat bazalarında sistemləşdirilməsi gələcək mühafizə tədbirləri üçün əsas yaradır.

Elmin Qarabağa qayıdışı regionun gələcəyinin elmi biliklər əsasında qurulması deməkdir. Qarabağda yalnız dağıdılmış şəhər və kəndləri deyil, həm də zədələnmiş təbii mühiti bərpa etməli, ekoloji tarazlığın qorunmasını quruculuq prosesinin ayrılmaz hissəsinə çevirməliyik. Zəfərin qorunması müstəqil dövlətimizin iqtisadi, elmi, texnoloji və müdafiə potensialının daim gücləndirilməsini tələb edir. Prezident İlham Əliyev bu gün xalqa müraciətində qeyd etdiyi kimi, Azərbaycan elə güclü olmalıdır ki, heç kim ölkəmizə zərər vermək barədə düşünməsin. Bu fikir hər bir vətəndaş, o cümlədən alimlər qarşısında mühüm məsuliyyət müəyyənləşdirir. Güclü dövlətin əsas dayaqlarından biri də güclü elmdir. Yüksək elmi potensial, insan kapitalı, müasir texnologiyalar və innovasiya imkanları ölkəmizin müstəqilliyinin və rəqabət qabiliyyətinin möhkəmlənməsində mühüm rol oynayır", - deyə İ.Hüseynova qeyd edib.

Zəfərimizin əsas memarı Müzəffər Ali Baş Komandan İlham Əliyevdir

Prezident İlham Əliyevin Zəfər Günü münasibətilə Xankəndidən Azərbaycan xalqına ünvanladığı təbrik müraciəti tarixi Qələbəmizin siyasi, hərbi və mənəvi əhəmiyyətini bir daha nümayiş etdirir. Dövlətimizin başçısının "Qarabağ Azərbaycandır və nida" fikri xalqımızın heç vaxt torpaqlarımızın işğalı ilə barışmadığını, Qarabağın azadlığının milli iradəmizin və dövlətçilik əzmimizin təntənəsi olduğunu bir daha təsdiqləyir.



Bu fikirləri AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva söyləyib.

Akademik bildirib ki, Azərbaycan xalqı 30 ilə yaxın davam edən işğal dövründə torpaqlarına qayıdacağına inamını heç vaxt itirməyib. Bu müddətdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə beynəlxalq siyasət, iqtisadiyyat, hərbi quruculuq və ordunun modernləşdirilməsi istiqamətində mühüm hazırlıq işləri aparılıb. Nəticədə Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində tarixi missiyasını uğurla yerinə yetirərək torpaqlarımızı işğaldan azad edib.

Gövhər Baxşəliyeva Prezidentin Xankəndidəki çıxışında səsləndirdiyi fikirlər arasında Zəfər muzeyləri ilə bağlı məqamın da xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. Qeyd edib ki, Bakı və Xankəndidəki Zəfər muzeylərində Qarabağın azadlığı uğrunda şəhid olmuş əsgər və zabitlərimizin adlarının və şəkillərinin nümayiş etdirilməsi onların xatirəsinin əbədi yaşadılmasına xidmət edəcək.

Akademik, həmçinin dünya şöhrətli fotoqraf Reza Deqatinin erməni işğalı dövründə şahidi olduğu vəhşiliklər barədə danışdıqlarını xatırladaraq, Azərbaycan əsirlərinə qarşı törədilən işgəncələrin insanlıq əleyhinə cinayət olduğunu bildirib.

O, 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında keçirilən antiterror tədbirləri zamanı Azərbaycan əsgər və zabitlərinin göstərdiyi qəhrəmanlığı xüsusi qeyd edib. Bildirib ki, Azərbaycan Ordusunun şəxsi heyəti yüksək döyüş ruhu, fədakarlıq və Vətənə bağlılıq nümayiş etdirib. Bu Qələbə həm də xalqımızın milli birliyinin, dövlətimizə və ordumuza inamının nəticəsidir.

Gövhər Baxşəliyeva vurğulayıb ki, Azərbaycan tarixən müxtəlif dinlərin, konfessiyaların və mədəniyyətlərin nümayəndələrinin sülh və qarşılıqlı hörmət şəraitində yaşadığı tolerant ölkə olub. Xalqımızın bir ailə kimi birləşməsi və milli həmrəyliyi dövlətimizin gücünün əsas dayaqlarındandır.

Akademik hesab edir ki, tarixi Zəfərin əsas memarı Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Bununla yanaşı, Azərbaycan Ordusunun qəhrəmanlığı və şəhidlərimizin müqəddəs fədakarlığı Qələbəmizin ən mühüm amilləridir.

O, xalqımızı Prezident İlham Əliyevin ətrafında sıx birləşməyə, milli həmrəyliyi və dövlətçiliyimizi qorumağa çağırıb, şəhidlərimizin əziz xatirəsi qarşısında baş əydiyini, qazilərimizə şəfa arzuladığını bildirib.

8 Noyabr ən böyük bayramdır



Deyirlər ki, bəşər tarixi müharibələr tarixidir. Amma ən böyük şəxsiyyət, əlbəttə ki, müharibələrə son qoymağı bacaran, onların davam etməsinə imkan verməyən insandır. Bu mənada böyük şairimiz Hüseyn Cavidin sözləri xüsusi əhəmiyyət kəsb edir: "Kəssə hər kim tökülən qan izini, qurtaran dahi odur yer üzünü".

Bunu açıqlamasında AMEA-nın Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli bildirib.

Torpaqlarımızın 30 il ərzində işğal altında qalmasına toxunan T.Kərimli bildirib ki, Qarabağ torpaqları bu müddətdə öz sahibindən ayrı düşən azərbaycanlılar üçün darıxırdı. Həmin torpaqları özünə - sahibinə qaytaran insan həm xalqına, həm də torpağına xidmət etmiş olub. Bu mənada Azərbaycan Prezidenti İlham Əliyev dahi şəxsiyyətdir.

"Buna görə də 8 Noyabr mənim üçün bayramlarımız arasında ən böyük bayramdır. İslamda böyük və kiçik bayram anlayışları var. Mənim düşüncəmə görə, bütün bayramlarımız 8 Noyabrın qarşısında kiçik bayramlardır. Ona görə də bu günə xüsusi əhəmiyyət verirəm. Xüsusilə gənc nəslin təlim-tərbiyəsində bu bayramın rolunu, əhəmiyyətini və tarixi missiyasını izah etmək üçün müəllimlərimiz çox böyük iş görməlidirlər", - deyə akademik vurğulayıb.

O, 8 Noyabrın hələ açılmamış bədii və mənəvi qatlarının zaman keçdikcə daha dərindən üzə çıxacağını bildirərək deyib: "Mənə elə gəlir ki, 8 Noyabrın bədii ensiklopediyası hələ yazılmayıb. Bu istiqamətdə işlərə yalnız indi-indi başlanılır. Çünki ən böyük hadisələri, ən böyük predmet və obyektləri müəyyən zaman keçdikdən sonra daha aydın görmək mümkündür. Dağa yaxından baxanda onun bütövlüyünü görə bilmirsən. Bir qədər uzaqlaşmaq, zamanın keçməsini gözləmək lazımdır ki, onu tam şəkildə qavrayasan, görə və təsvir edə biləsən. Bu mənada düşünürəm ki, zaman keçdikcə vətənpərvər şairlərimiz, yazıçılarımız, alimlərimiz və filosoflarımız 8 Noyabr fenomeninə yenidən qayıdacaq, onu təsvir və tədqiq edəcəklər. Bu isə şübhəsiz ki, xalqımızın inkişafında, dünya xalqları arasında öz layiqli yerini tutmasında çox böyük rol oynayacaq".

Xankəndidən xalqa ünvanlanan təbrik Zəfər tariximizin siyasi, mənəvi və ideoloji məzmununu bir daha nümayiş etdirir

Prezident İlham Əliyevin Zəfər Günü münasibətilə Azərbaycan xalqına Xankəndidən ünvanladığı təbriki tarixi Qələbəmizin siyasi, hərbi, mənəvi və ideoloji əhəmiyyətini bir daha nümayiş etdirir. Təbrikin məhz Xankəndidə, Zəfər tağının önündə səsləndirilməsi Azərbaycanın dövlət suverenliyinin, milli iradəsinin və tarixi ədalətin təntənəsinin rəmzi ifadəsidir.



Bu fikirləri açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Folklor İnstitutunun direktoru, filologiya elmləri doktoru Hikmət Quliyev bildirib.

O qeyd edib ki, Xankəndi bu gün Azərbaycanın hərbi-siyasi Zəfərinin və dövlət suverenliyinin mühüm rəmzlərindən biridir. Dövlət başçısının müraciətində "Qarabağ Azərbaycandır və nida" bəyanatını təkrar səsləndirməsi, həmin nidanın 2023-cü il sentyabrın 20-də keçirilən antiterror əməliyyatı ilə təsdiqlənməsi tarixi Qələbənin məntiqi nəticəsini ifadə edir.

İnstitut direktorunun sözlərinə görə, vaxtilə separatçı rejimin fəaliyyət göstərdiyi binada Zəfər Muzeyinin yaradılması da xüsusi rəmzi məna daşıyacaq: "Bu, işğal və separatizm yaddaşını təmsil edən məkanın Azərbaycanın qəhrəmanlıq tarixini və tarixi Qələbəsini yaşadan mədəniyyət məkanına çevrilməsidir".

H.Quliyev vurğulayıb ki, Azərbaycanın Zəfəri ardıcıl dövlət siyasətinin, güclü ordu quruculuğunun, fəal diplomatiyanın, iqtisadi inkişafın və xalqın milli həmrəyliyinin nəticəsidir. Vətən müharibəsində Azərbaycan Ordusunun nümayiş etdirdiyi yüksək döyüş qabiliyyəti, peşəkarlıq, milli ruh və Vətənə bağlılıq Qələbənin əsas amillərindən olub. O bildirib ki, 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatı Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin bərpasını təmin edən vahid tarixi prosesin mühüm mərhələləridir.

Folklor İnstitutunun direktoru işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işlərinin də Zəfərin davam edən nəticəsi olduğunu deyib. Onun sözlərinə görə, "Böyük Qayıdış" proqramı çərçivəsində doğma torpaqlara qayıdış, yeni yaşayış məntəqələrinin, məktəblərin, sosial və mədəni obyektlərin inşası tarixi yaddaşın və mədəni varisliyin bərpasına xidmət edir.

Hikmət Quliyev Prezidentin müraciətində azərbaycançılıq məfkurəsi və milli-mənəvi dəyərlərlə bağlı səsləndirilən fikirlərin də əhəmiyyətini vurğulayıb. Bildirib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan azərbaycançılıq ideologiyası müxtəlif etnik və dini qrupları vahid dövlətçilik mənafeyi ətrafında birləşdirən, milli həmrəyliyi və ümumi gələcəyə inamı gücləndirən əsas ideoloji dayaqlardandır. Vətən müharibəsində xalqın vahid məqsəd naminə səfərbər olması bu məfkurənin real ictimai gücünü nümayiş etdirib.

O, fikirlərini ümumiləşdirərək bildirib ki, Prezident İlham Əliyevin Xankəndidən xalqa ünvanladığı təbrik Zəfərin yalnız hərbi Qələbə deyil, həm də milli iradənin, siyasi qətiyyətin, tarixi ədalətin və ümummilli həmrəyliyin təntənəsi olduğunu təsdiqləyir. Azərbaycanın qarşısında duran əsas məqsəd əldə edilmiş tarixi nailiyyətləri qorumaq, dövlət müstəqilliyini və suverenliyini daha da möhkəmləndirmək, gələcək nəsillərə güclü və inkişaf edən Azərbaycan miras qoymaqdır.

Azərbaycançılıq məfkurəsi və gələcəyə baxış

44 günlük Vətən müharibəsində qazanılan Zəfər Azərbaycan xalqının milli iradəsinin, birliyinin, dövlətçilik əzminin və Vətənə bağlılığının təcəssümüdür. Bu tarixi qələbə yalnız hərbi-siyasi nailiyyət deyil, həm də milli özünüdərkin, tarixi yaddaşın və mənəvi bütövlüyün yeni məzmun qazandığı mühüm mərhələdir. Zəfər xalqımızın dövlətçilik düşüncəsini daha da möhkəmləndirməklə yanaşı, Azərbaycançılıq məfkurəsinin ictimai və ideoloji əhəmiyyətini də ön plana çıxarır.



Bu fikirləri açıqlamasında AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, professor İlham Məmmədzadə bildirib.

Professor qeyd edib ki, Azərbaycan dövlətçiliyinin ideya təməlində xalqın çoxəsrlik tarixi təcrübəsi, milli-mədəni irsi, dili və mənəvi yaddaşı dayanır. Bu təməl üzərində formalaşan azərbaycançılıq məfkurəsi cəmiyyətin müxtəlif etnik, dini və mədəni mənsubiyyətlərini vahid vətəndaşlıq məkanında birləşdirən ümumi dəyər sistemidir.

"Ölkəmizdə yaşayan müxtəlif xalqların və dini konfessiyaların nümayəndələrini ortaq Vətən, dövlətçilik və vətəndaşlıq məsuliyyəti ətrafında birləşdirən bu ideya milli həmrəyliyin fəlsəfi əsasını təşkil edir. Azərbaycançılığın mahiyyəti fərqliliklərin aradan qaldırılmasında deyil, onların qarşılıqlı hörmət və anlaşma şəraitində vahid ictimai bütövlük yaratmasındadır. Milli birlik cəmiyyətin bütün üzvlərinin eyni düşünməsi ilə deyil, müxtəlif düşüncə və mədəniyyətlərin ümumi dövlətçilik dəyərləri ətrafında uzlaşması ilə möhkəmlənir. Bu baxımdan, azərbaycançılıq etnik və dini müxtəlifliyi parçalanma amili kimi deyil, milli-mədəni zənginliyin ayrılmaz hissəsi kimi qəbul edən dünyagörüşüdür".

Professor vurğulayıb ki, azərbaycançılıq məfkurəsi milli və ümumbəşəri dəyərlər arasında tarazlığın qorunmasını da nəzərdə tutur. Milli kimliyini qoruyan cəmiyyət eyni zamanda dünyaya açıq olmalı, elmi və intellektual yenilikləri mənimsəməli, qlobal inkişaf proseslərində fəal iştirak etməlidir. Lakin müasirliyə inteqrasiya milli-mənəvi əsaslardan uzaqlaşmaq hesabına baş verməməlidir. Əksinə, milli özünüdərk gücləndikcə cəmiyyət qlobal dəyişikliklər qarşısında öz mövqeyini daha aydın müəyyənləşdirə bilir. Bu mənada azərbaycançılıq qloballaşma şəraitində milli özünəməxsusluğu qorumaqla dünyaya inteqrasiya etməyin ideya istiqamətidir.

İlham Məmmədzadənin fikrincə, gələcəyə baxış azərbaycançılıq məfkurəsinin yalnız qoruyucu deyil, həm də yaradıcı mahiyyətini üzə çıxarır. Bu gün milli ideyanın qarşısında duran əsas vəzifələrdən biri onu yeni nəslin düşüncə tərzi, təhsil dünyası, elmi axtarışları və ictimai davranışları ilə əlaqələndirməkdir.

"Azərbaycançılıq dövlətçiliyin ideoloji əsaslarından biri olmaqla yanaşı, cəmiyyətin özünü dərk etməsinin, müxtəlifliyi birliyə çevirməsinin və gələcək qarşısında məsuliyyətini müəyyənləşdirməsinin fəlsəfi ifadəsidir. Onun dayanıqlılığı milli dəyərlərin yalnız bəyan edilməsində deyil, təhsildə, elmdə, mədəniyyətdə, ictimai münasibətlərdə və vətəndaş davranışlarında yaşadılmasındadır.

Azərbaycançılığın gələcək fəlsəfəsi milli köklərdən güc alan, müasir dünyanın imkanlarını mənimsəyən və gələcək nəsillər qarşısında məsuliyyətini dərk edən insan yetişdirmək ideyası ilə bağlıdır. Zəfərin bizə qazandırdığı tarixi təcrübə də göstərir ki, milli birlik, mənəvi bütövlük və dövlətçilik düşüncəsi xalqın gələcəyini müəyyən edən mühüm amillərdir. Azərbaycançılıq məfkurəsinin əsas missiyası bu bütövlüyü qorumaq, inkişaf etdirmək və gələcək nəsillərə daha zəngin mənəvi-intellektual irs kimi ötürməkdir", - deyə professor əlavə edib.

Azərbaycançılıq məfkurəsi: milli dövlətçilik ənənələri və müstəqillik fəlsəfəsi

Hər bir xalqın tarixi inkişafında onun milli kimliyini müəyyənləşdirən, ictimai birliyini möhkəmləndirən və gələcək inkişaf istiqamətlərini müəyyən edən ideoloji-fəlsəfi prinsiplər mühüm əhəmiyyət daşıyır. Bu prinsiplər xalqın tarixi təcrübəsinin, mədəni irsinin, mənəvi dəyərlərinin, siyasi düşüncəsinin və dövlətçilik ənənələrinin məcmusu kimi meydana çıxır. Azərbaycan xalqının milli kimliyinin və dövlətçilik düşüncəsinin formalaşmasında mühüm rol oynayan belə ideoloji sistemlərdən biri də azərbaycançılıqdır.



Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev 8 Noyabr - Zəfər Günü münasibətilə Azərbaycan xalqına ünvanladığı təbrikində azərbaycançılıq məfkurəsinin tarixi, fəlsəfi və siyasi əhəmiyyətinə toxunaraq bu ideologiyanın ölkənin inkişafını təmin edən və Azərbaycan xalqını gələcəyə aparacaq mühüm amil olduğunu xüsusilə vurğuladı. Ölkə başçısı təbrik çıxışında azərbaycançılıq məfkurəsini milli özünüdərkin, dövlətçilik ənənələrinin, milli-mənəvi dəyərlərin və vətəndaş həmrəyliyinin mühüm ideoloji-fəlsəfi ifadəsi kimi qiymətləndirdi.

Əlbəttə, Bu ideologiyanın formalaşmasında Azərbaycan xalqının tarixi yaddaşı, dili, mədəniyyəti, dini və dünyəvi dəyərləri, eləcə də müstəqil dövlətçilik təcrübəsinin özünəməxsus qanunauyğunluqları dayanır. Belə ki, Ümummilli Lider Heydər Əliyevin müstəqillik bərpa edildikdən sonra azərbaycançılıq ideologiyasının konseptual əsaslarının müəyyənləşdirilməsindəki rolu, İlham Əliyevin rəhbərliyi dövründə bu ideologiyanın müasir dövlətçilik, milli birlik və multikulturalizm kontekstində inkişafı bugünkü Azərbaycan dövlətinin əldə etdiyi nailiyyətlərinin əsasını təşkil edir.

Azərbaycançılıq yalnız müəyyən siyasi konsepsiya və ya milli ideologiya deyil, eyni zamanda Azərbaycan xalqının tarixi yaddaşını, mədəni özünəməxsusluğunu, mənəvi dünyasını və müasir dövlətçilik maraqlarını özündə birləşdirən geniş ictimai-fəlsəfi dünyagörüşüdür. Onun mahiyyətində Azərbaycanı tarixi vətən kimi qəbul etmək, dövlətin müstəqilliyini qorumaq, milli-mənəvi dəyərlərə hörmətlə yanaşmaq, müxtəlif etnik və dini mənsubiyyətə malik insanların vahid cəmiyyət daxilində həmrəyliyini təmin etmək kimi fundamental prinsiplər dayanır.

Azərbaycançılığın ideoloji məzmunu tarixən müxtəlif mərhələlərdə zənginləşmiş, milli oyanış prosesləri, dövlətçilik təcrübəsi və ictimai-siyasi dəyişikliklər nəticəsində yeni məna çalarları qazanmışdır. Müasir dövrdə azərbaycançılıq milli dövlətçiliyin möhkəmləndirilməsi, etnik və dini mənsubiyyətindən asılı olmayaraq Azərbaycan cəmiyyətində mövcud həmrəylik düsturu, milli-mənəvi irsin qorunması və Azərbaycanın beynəlxalq münasibətlər sistemində özünəməxsus mövqeyinin müəyyənləşdirilməsi baxımından xüsusi aktuallıq kəsb edir.

Azərbaycançılığın siyasi mahiyyəti, ilk növbədə, milli dövlətçilik, suverenlik, ərazi bütövlüyü, siyasi sabitlik və vətəndaş həmrəyliyi prinsipləri ilə müəyyən olunur. Bu ideologiya Azərbaycan Respublikasının müstəqil dövlət kimi mövcudluğunun və inkişafının siyasi-fəlsəfi əsaslarını formalaşdıran mühüm konseptual istiqamətdir. Azərbaycançılıq dövlətin siyasi institutlarının, ictimai münasibətlər sisteminin və milli maraqların vahid ideoloji müstəvidə uzlaşdırılmasına xidmət edir. Bu mənada, azərbaycançılıq cəmiyyətin etnik, dini, sosial və regional müxtəlifliyinə baxmayaraq, vahid dövlət və vətəndaşlıq məkanı daxilində birləşməsini nəzərdə tutur. Başqa ifadə ilə desək, ideologiyanın əsas subyekti Azərbaycan dövlətinə və onun konstitusion dəyərlərinə bağlı olan bütün vətəndaşlardır.

Bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin mövqeyi onların siyasi müstəqilliyi, iqtisadi potensialı, milli təhlükəsizliyi və beynəlxalq əməkdaşlıq imkanları ilə müəyyən olunur. Bu baxımdan azərbaycançılıq məfkurəsi milli maraqların qorunması və dövlətin beynəlxalq nüfuzunun yüksəldilməsi istiqamətində mühüm siyasi prioritetdir.

Bununla belə, azərbaycançılığın davamlı və səmərəli ideoloji sistem kimi inkişafı onun yalnız tarixi və mədəni irsə əsaslanmasından deyil, həm də müasir cəmiyyətin hüquqi, sosial, intellektual və etik tələblərinə cavab verməsindən asılıdır.


Milli ideologiya vətəndaşların gündəlik həyatında hüquqa hörmət, sosial məsuliyyət, elmi düşüncə, qarşılıqlı etimad və ictimai ədalət prinsipləri ilə təsdiq olunmalıdır.


Nəticə etibarilə, azərbaycançılıq keçmişin tarixi yaddaşını, bu günün dövlətçilik məsuliyyətini və gələcəyin milli inkişaf perspektivlərini vahid ideya sistemində birləşdirən siyasi, fəlsəfi və ictimai konsepsiyadır. Onun əsas missiyası Azərbaycan xalqının milli-mədəni varlığını qorumaqla yanaşı, müstəqil dövlətin möhkəmləndirilməsi, vətəndaş həmrəyliyinin inkişafı və ümumbəşəri dəyərlərə əsaslanan müasir cəmiyyətin formalaşdırılmasına xidmət etməkdir.

Elnur MUSTAFAYEV
AMEA-nın akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktor müavini, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent

AMEA-da elmi fəaliyyətin bal sistemi əsasında rəqəmsal qiymətləndirilməsinə dair müşavirə keçirilib

Azərbaycan Milli Elmlər Akademiyasında elmi müəssisələrin fəaliyyətinin bal sistemi əsasında rəqəmsal qiymətləndirilməsi mexanizminin təkmilləşdirilməsi və pilot qaydada tətbiqi məsələlərinə həsr olunmuş müşavirə keçirilib.





Müşavirədə AMEA Rəyasət Heyəti Aparatının Elm və təhsil şöbəsinin müdiri, filologiya elmləri doktoru Sərxan Xavəri, Rəqəmsal Akademiya, süni intellekt və elektron xidmətlər şöbəsinin müdiri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Fariz İmranov, AMEA-nın Folklor İnstitutunun direktoru, filologiya elmləri doktoru Hikmət Quliyev, Mərkəzi Elmi Kitabxananın direktoru, texnika elmləri doktoru, dosent Hüseyn Hüseynov, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər və rəqəmsal inkişaf üzrə direktor müavini, filologiya elmləri doktoru Mehman Həsənli, Arxeologiya və Antropologiya İnstitutunun direktoru, tarix üzrə fəlsəfə doktoru, dosent Fərhad Quliyev, Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, fəlsəfə elmləri doktoru, professor İlham Məmmədzadə və digər müvafiq əməkdaşlar iştirak ediblər.

Müşavirədə bildirilib ki, AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin təşəbbüsü və rəhbərliyi ilə Akademiyada həyata keçirilən islahatların mühüm istiqamətlərindən birini elmi fəaliyyətin və idarəetmənin rəqəmsallaşdırılması, müasir informasiya texnologiyalarının və süni intellekt imkanlarının tətbiqi təşkil edir. Bu istiqamətdə görülən işlərin məqsədi elmi fəaliyyətin nəticələrinin sistemli qeydə alınması, ölçüləbilən göstəricilər əsasında dəyərləndirilməsi və hesabatlılığın təkmilləşdirilməsidir.

Qeyd olunub ki, akademik İsa Həbibbəylinin təklifi əsasında AMEA Rəyasət Heyətinin müvafiq qərarına əsasən, elmi fəaliyyətin bal sistemi üzrə rəqəmsal qiymətləndirilməsinin ilkin mərhələdə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Folklor İnstitutu, Arxeologiya və Antropologiya İnstitutu, Fəlsəfə və Sosiologiya İnstitutunda pilot qaydada tətbiqi nəzərdə tutulur.

Müzakirələr zamanı bal sisteminin konseptual əsasları, qiymətləndirmə mexanizmləri, fəaliyyət istiqamətləri üzrə kateqoriyalar və meyarlar geniş təhlil edilib. Elmi məqalələr, monoqrafiyalar, kitablar, sahə tədqiqatları, elmi ekspedisiyalar, qrant və layihələr, beynəlxalq əməkdaşlıq, elmi ekspertiza, elmin populyarlaşdırılması, milli elmi-mədəni irsin tədqiqinə töhfələr, rəqəmsal elmi resursların yaradılması və digər fəaliyyət növləri üzrə bal göstəricilərinin müəyyənləşdirilməsi məsələlərinə xüsusi diqqət yetirilib.

Müşavirədə bal sisteminin praktik tətbiqi zamanı yarana biləcək təşkilati, metodoloji və texnoloji çətinliklər də ətraflı şəkildə müzakirə olunub. Elmi əməkdaşların fərdi elektron kabinetlərinin fəaliyyəti, məlumatların sistemə daxil edilməsi, təsdiqedici sənədlərin yoxlanılması, həmmüəllifli işlərin qiymətləndirilməsi, təkrar göstəricilərin qarşısının alınması, balların avtomatik hesablanması və ümumiləşdirilmiş hesabatların hazırlanması məsələləri nəzərdən keçirilib.

Qiymətləndirmə meyarlarının təkmilləşdirilməsi, elektron sistemin texniki imkanlarının genişləndirilməsi, istifadəçilərə metodiki və texniki dəstəyin göstərilməsi, elmi müəssisələr arasında əlaqələndirmənin gücləndirilməsi və pilot tətbiq zamanı ortaya çıxan problemlərin operativ həlli yolları ilə bağlı təkliflər səsləndirilib.

Sonda qərara gəlinib ki, AMEA-nın elmi müəssisələrinin elmi və elmi-təşkilati fəaliyyətinin bal sistemi əsasında qiymətləndirilməsi modeli AMEA Rəyasət Heyətinin növbəti iclasında müzakirəyə təqdim edilsin.

Dilçi alim Türkiyədə keçirilən beynəlxalq simpoziumda

Türkiyə Respublikasının Sinop şəhərində "XVIII Dünya Dili Türkcə Simpoziumu" keçirilib.



7 ölkədən 279 alimin qatıldığı bu beynəlxalq tədbirdə Azərbaycan Respublikasını AMEA Nəsimi adına Dilçilik İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya elmləri doktoru, dosent, Türk Dil Qurumunun müxbir üzvü Baba Məhərrəmli təmsil edib. Baba Məhərrəmli bu beynəlxalq simpoziumda 2 məruzə ilə çıxış edib: "Türk dillərində tək sait quruluşlu söz kökləri" və "Türk dillərində nostratik leksika". Hər iki məruzə böyük maraqla qarşılanıb.

Baba Məhərrəmli, həmçinin Əlişir Nəvai salonundakı bölməyə rəhbərlik (oturum başkanlığı) edib.

Akademik Möhsün Nağısoylu:

"Rəqəmsal texnologiyaların və süni intellektin sürətlə inkişafı yazılı irsimizin yeni aspektlərinin öyrənilməsi baxımından yeni imkanlar açır"

AMEA prezidentinin müşaviri, akademik Möhsün Nağısoylu uzun illərdir Azərbaycan dilinin tarixi, orta əsrlərə aid yazılı abidələrin, klassik tərcümə əsərlərinin və əlyazmaların tədqiqi ilə məşğul olur. 80 illik yubileyi münasibətilə dilçi alimlə söhbətimizdə klassik yazılı irsin Azərbaycan dili və ədəbiyyatının tarixinin öyrənilməsində rolu, rəqəmsal texnologiyaların və süni intellektin dilçilik elminin inkişafına təsiri, Azərbaycan dilinin saflığının qorunması və ədəbi dil normalarına riayət olunması məsələlərinə toxunduq. O, həmçinin elmi fəaliyyətin əsas xüsusiyyətləri, gənc tədqiqatçıların qarşısında duran vəzifələr və elmdə uğur qazanmağın əsas şərtləri barədə suallarımızı cavablandırıb.



- Hörmətli Möhsün müəllim, elmi fəaliyyətinizin böyük bir hissəsini orta əsrlərə aid Azərbaycan yazılı abidələrinin araşdırılmasına həsr etmisiniz. Bu mənbələrin öyrənilməsinin Azərbaycan dili və ədəbiyyatının tarixində rolu barədə məlumat verməyinizi istərdik.

- Ümumiyyətlə, qeyd etmək istəyirəm ki, qədim əlyazma kitabları həm mədəniyyət və ədəbiyyatımızın, həm də tariximizin və ədəbi dilimizin keçmişini özündə yaşadan ən dəyərli və mötəbər yazılı mənbələrdən biridir. Məhz buna görə də qədim əlyazma kitablarının öyrənilməsi və nəşrə hazırlanması xüsusi əhəmiyyətə malikdir.

Konkret olaraq, sualınıza gəldikdə, qeyd etməliyəm ki, orta yüzilliklərin yadigarları olan Azərbaycan-türk tərcümə əsərlərinin əlyazmaları ədəbiyyat tariximizin xüsusi bir qolunu təşkil edir. Orta əsrlərdə tərcümə sənəti müstəqil bədii yaradıcılığın mühüm bir növü sayılmış, klassik tərcümə nümunələri müasir tərcümələrdən əsaslı şəkildə fərqlənmişdir. Bu kimi əsərlərdə orijinal fikirlər də öz əksini tapmışdır. Məhz buna görə də ədəbiyyat tariximizə aid araşdırmaların bir çoxunda tərcümə əsərlərinə ayrıca yer ayrılmışdır.

Məlumdur ki, ana dilimizdə qələmə alınmış ilk nəsr nümunələri tərcümə əsərləridir. XIV əsr müəllifi və mütərcimi Mustafa Zəririn "Siyərün-nəbi" və "Fütuhüş-Şam" tərcümələri buna nümunədir. Deməli, nəql edilən tərcümə əsərləri Azərbaycanda orijinal nəsr əsərlərinin yaranması üçün müsbət zəmin yaratmışdır.

Qeyd etmək lazımdır ki, orta əsrlərin tərcümə əsərləri ədəbi dil tariximiz üçün də müstəsna əhəmiyyətə malikdir. Klassik tərcümə nümunələri zəngin dil abidələridir. Məhz ilkin tərcümə örnəklərində bir sıra nadir qədim türk sözləri işlənmişdir. Bütün bu xüsusiyyətlərinə görə ədəbi dil tariximizə aid araşdırmaların bir qismi klassik tərcümə nümunələri əsasında aparılmışdır.

Buna nümunə olaraq, XVI əsrə aid tərcümə əsəri olan Nişatinin "Şühədanamə"sini göstərmək olar. İrihəcmli bu nəsr tərcüməsinin dili haqqında indiyədək dörd fəlsəfə doktorluğu dissertasiyası müdafiə olunmuşdur. Eləcə də Azərbaycan ədəbi dil tarixinə aid bir sıra elmi araşdırmalarda orta əsr tərcümə əsərlərinin materiallarından kifayət qədər geniş istifadə olunmuşdur.

Beləliklə, orta əsrlərə aid Azərbaycan-türk tərcümə əsərləri ədəbi dilimizin tarixinin öyrənilməsi baxımından zəngin və dəyərli mənbələrdir. Onların hərtərəfli araşdırılması dilimizin tarixi inkişaf mərhələlərinə və qədim dil xüsusiyyətlərinə daha dərindən bələd olmağa imkan verir.

- Müasir dövrdə rəqəmsal texnologiyalar və süni intellekt səmərəli elmi tədqiqatların aparılması üçün yeni imkanlar yaradır. Sizcə, qədim əlyazmaların rəqəmsallaşdırılması və süni intellekt vasitəsilə mətnlərin araşdırılması Azərbaycan dilinin tarixinin öyrənilməsinə necə töhfə verə bilər?

- Əvvəla, qeyd edim ki, milli-mədəni irsimizin qorunması və beynəlxalq səviyyədə tanıdılması istiqamətində həyata keçirilən dövlət siyasəti çərçivəsində qədim əlyazmaların rəqəmsallaşdırılması xüsusi əhəmiyyət daşıyır. Elektron resursların yaradılması bu qiymətli mənbələrin daha geniş auditoriya üçün əlçatan olmasına imkan verir.

Məlum olduğu kimi, Azərbaycanda qədim əlyazma kitablarının saxlanıldığı əsas elmi mərkəz AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutudur. İnstitutda qorunan əlyazmaların elektronlaşdırılmasına, yəni rəqəmsallaşdırılmasına bir neçə il əvvəl başlanılmış və bu sahədə müəyyən işlər görülmüşdür.

Bu istiqamətdə görülən işlərin davam etdirilməsi qədim yazılı irsimizin qorunması və gələcək nəsillərə çatdırılması baxımından vacibdir. Əlyazmaların elektron kataloqunun və elektron kitabxanasının yaradılması onların sistemləşdirilməsinə, tədqiqatçıların müvafiq mənbələri daha asan tapmasına və onlardan istifadəsinə şərait yaradır.

Elektron resurslar, eyni zamanda, müxtəlif ölkələrdə fəaliyyət göstərən alimlərin Azərbaycan əlyazmalarını araşdırmasını asanlaşdıra bilər. Bu, milli yazılı irsimizin beynəlxalq elmi tədqiqatlara cəlb olunmasına və onun əsasında yeni araşdırmaların aparılmasına imkan verər.

Rəqəmsal texnologiyaların və süni intellektin sürətlə inkişaf etdiyi müasir dövrdə bu vasitələrin qədim əlyazma mətnlərinin tədqiqinə tətbiqi də xüsusi əhəmiyyət kəsb edir. İnanıram ki, onların elmi araşdırmalarda istifadəsi gələcəkdə mühüm nəticələrin əldə olunmasına və yazılı irsimizin yeni aspektlərinin üzə çıxarılmasına töhfə verəcəkdir.

- Son illər Azərbaycan dilinin saflığının qorunması, sosial şəbəkələrdə və kütləvi informasiya vasitələrində ədəbi dil normalarına əməl olunması məsələləri tez-tez müzakirə edilir. Sizcə, dilimizin zənginliyini qorumaq və onun düzgün istifadəsini təmin etmək üçün dövlət qurumları, media və cəmiyyət tərəfindən hansı zəruri addımlar atılmalıdır?

- Dil xalqın varlığı və kimliyi, ən böyük milli-mənəvi sərvətlərindən biridir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev dilimizə böyük dəyər verərək demişdir: "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir". Ulu Öndərin layiqli varisi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də dövlət dilimizin inkişafını və saflığının qorunmasını daim diqqət mərkəzində saxlayaraq demişdir: "Əsrlər boyu bizi xalq kimi, millət kimi qoruyub saxlayan bizim ana dilimizdir, Azərbaycan dilidir".

İstər Ulu Öndər Heydər Əliyev, istərsə də Prezident İlham Əliyev dilimizin inkişafına xüsusi diqqət göstərmiş, bu istiqamətdə mühüm tədbirlər həyata keçirmiş, bir sıra fərman və sərəncamlar imzalamışlar. Bununla belə, təəssüf hissi ilə qeyd etmək lazımdır ki, sosial şəbəkələrdə və İnternet resurslarında əcnəbi sözlərin yersiz işlədilməsi, ədəbi dilimizin normalarının pozulması hallarına rast gəlinir. Düşünürəm ki, bu problemin aradan qaldırılması üçün əsas addımlardan biri maarifləndirmə tədbirlərinin genişləndirilməsi və sistemli şəkildə həyata keçirilməsidir.

Hər bir Azərbaycan vətəndaşı öz övladını körpəlikdən ana dilini sevmək ruhunda böyütməlidir. Hər bir azərbaycanlı bilməlidir ki, onun dili dünyanın ən qədim və zəngin dillərindən biridir. Ümummilli Lider Heydər Əliyev demişdir: "Bizim dilimiz zəngindir, qədim tarixi köklərə malikdir. Mən şəxsən ana dilimi sevirəm və bu dildə danışmağımla fəxr edirəm". Hər bir Azərbaycan vətəndaşı da Ulu Öndər kimi ana dilini sevməli və bu dildə danışması ilə fəxr etməlidir.

Fikrimcə, dilimizin saflığının qorunması və ədəbi dil normalarına riayət olunması ilə bağlı əvvəllər olduğu kimi, Azərbaycan Dövlət Televiziyasında və İctimai Televiziyada Azərbaycan dili verilişləri yenidən bərpa edilməli, həmin verilişlərdə bu məsələlərə geniş yer ayrılmalıdır.

Qəzetlərimizdə də tez-tez bu məsələyə toxunmaq, mövzu ilə bağlı müzakirələr aparmaq, dəyirmi masalar təşkil etmək məqsədəuyğun olardı. Yeri gəlmişkən, qeyd edim ki, televiziya kanallarında dilimizə yad olan "eks" və "təxliyə" sözlərinə tez-tez rast gəlirik: "eks-prezident", "sakinlər təxliyə edildi" və s. Bu kimi söz və ifadələri aşağıdakı şəkildə işlətmək daha məqsədəuyğundur: "keçmiş prezident", "sakinlər köçürüldülər". Əlbəttə, belə nümunələr çoxdur. Düşünürəm ki, dilimizdəki ayrı-ayrı alınma və əcnəbi sözlərin əvəzinə onların milli qarşılıqlarının işlədilməsi faydalı və gərəkli olardı.

Yekun olaraq demək istəyirəm ki, dövlət dilimizin keşiyində dayanmaq və onun saflığını qorumaq hər bir vətəndaşın borcu olmalıdır. Hər kəs bu məsuliyyəti dərk edərək ana dilimizin qorunması və inkişafına öz töhfəsini versə, dilimizlə bağlı mövcud problemlərin həllinə nail olmaq mümkündür.

- Möhsün müəllim, uzun illər ərzində apardığınız elmi araşdırmaları və Azərbaycan filologiyasının inkişafına verdiyiniz töhfələri nəzərə alaraq, alim kimi formalaşmaq və elmi fəaliyyətdə uğur qazanmaq üçün hansı keyfiyyətləri vacib hesab edirsiniz? Gənc tədqiqatçılara elmi axtarışlarında hansı tövsiyələri verərdiniz?

- Əlbəttə ki, elm sahəsində uğur qazanmaq və tanınmış alim kimi yetişmək üçün ən vacib şərtlərdən biri, ilk növbədə, seçdiyin peşəni sevmək, onu dərindən bilmək və incəliklərinə bələd olmaqdır. İnsan yalnız sevdiyi və dərindən mənimsədiyi sahədə ciddi uğurlar əldə edə bilər.

Bununla yanaşı, yaxşı alim olmaq üçün daim oxumaq, elmi axtarışlar aparmaq, yeni biliklər əldə etmək və bəzən gecələri belə mütaliəyə həsr etmək lazımdır. Gənc tədqiqatçı mütaliəyə xüsusi vaxt ayırmalı, imkan daxilində kitabxanalardan daha çox istifadə etməlidir. Təəssüf ki, bu gün kitabxanalara müraciət edənlərin sayı azdır. Bunun əsas səbəblərindən biri müasir informasiya texnologiyalarının, xüsusilə internetin yaratdığı geniş imkanlardır. Hazırda bir çox məlumatı kitabxanaya getmədən, elektron resurslar vasitəsilə əldə etmək mümkündür. Bununla belə, elmi fəaliyyət yalnız məlumat əldə etməklə məhdudlaşmır, müstəqil araşdırma və dərindən mütaliə də tələb edir.

Burada bir məqama da xüsusi diqqət yetirmək istərdim. Son illərdə elmə gələn gənc oğlanların sayının azalması müşahidə olunur. Düşünürəm ki, bu məsələnin səbəbləri araşdırılmalı və onun həlli yolları barədə ciddi düşünülməlidir.

Uzun illərini elmə həsr etmiş bir alim kimi qeyd etmək istəyirəm ki, elm yolu heç də asan deyil. Bu yolda uğur qazanmaq üçün gənc tədqiqatçı qarşılaşdığı çətinliklərdən çəkinməməli, səbir və əzmlə çalışmalı, davamlı elmi axtarışlar aparmalı və biliklərini daim artırmalıdır. Beləliklə, elmə sevgi, zəhmət və əzmkarlıq elmi uğurun əsas şərtlərindəndir.

- Sizcə, Azərbaycan ədəbiyyatının və dilçilik elminin beynəlxalq elmi mühitdə daha geniş tanıdılması, milli elmi irsimizin dünya miqyasında təbliği üçün hansı istiqamətlərdə fəaliyyət gücləndirilməlidir?

- Azərbaycan ədəbiyyatşünaslığı və dilçiliyinin nailiyyətlərinin beynəlxalq aləmdə tanıdılması, milli elmi irsimizin dünya miqyasında təbliği olduqca vacib məsələdir. Bu istiqamətdə müəyyən qədər nailiyyətlər əldə olunsa da, təəssüf ki, bu sahədə problemlər də mövcuddur.

Bu kimi problemlərin həlli üçün ilk növbədə müasir dünya elminin əsas istiqamətlərini və əldə etdiyi nailiyyətləri dərindən öyrənmək, beynəlxalq təcrübədən nəticə çıxarmaq lazımdır. Bunun üçün ingilis dilini yaxşı bilmək, elmi əsərlərimizi bu dildə nəşr etdirmək, nüfuzlu beynəlxalq elmi jurnallarda dərc olunmaq və beynəlxalq elmi mühitdə tanınmaq vacibdir.

Bununla yanaşı, Azərbaycan ədəbiyyatşünaslığı və dilçiliyinə dair mühüm tarixi elmi əsərlərin xarici dillərə tərcümə olunması və beynəlxalq elmi ictimaiyyətə təqdim edilməsi də önəmlidir. Milli elmi irsimizin dünya miqyasında tanıdılması üçün xarici ölkələrin elmi müəssisələri ilə əlaqələrin genişləndirilməsi, beynəlxalq konfranslarda iştirak və birgə tədqiqatların aparılması mühüm əhəmiyyət daşıyır.

Digər tərəfdən, müasir informasiya texnologiyalarının, süni intellektin imkanlarından da səmərəli istifadə etmək lazımdır. Əsas məqsəd milli elmi irsimizi yalnız ölkə daxilində deyil, beynəlxalq elmi mühitdə də tanıtmaq, onun dünya elminin inkişafına verdiyi töhfələri daha geniş auditoriyaya çatdırmaq olmalıdır.

Sonda bir məsələni də qeyd edim ki, Azərbaycan dilçiliyinin inkişafı, bu sahədə əldə olunan elmi nailiyyətlərin təbliği və milli elmi irsimizin beynəlxalq səviyyədə tanıdılması istiqamətində AMEA-da da mühüm işlər görülür. AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin rəhbərliyi altında dilçilik sahəsində elmi tədqiqatların təşviqinə, alimlərimizin elmi nailiyyətlərinin tanıdılmasına, yerli və beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət yetirilir. Bu məqsədlə elmi konfranslar və digər tədbirlər təşkil olunur.

Müsahibəni apardı:
Nərgiz QƏHRƏMANOVA
AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin Elektron informasiya sektorunun müdiri

Azərbaycan dilinin farsdilli poeziyaya təsiri

Azərbaycan dilinin qorunması, inkişafı və gələcək nəsillərə ötürülməsi yalnız dilçilik elminin deyil, bütövlükdə milli-mədəni siyasətin və ictimai düşüncənin aktual məsələlərindəndir. Bu baxımdan Azərbaycan dilinin tarixi inkişaf arealında, xüsusilə İranda yaşayan soydaşlarımızın dil və ədəbi mühitindəki mövqeyinin elmi şəkildə araşdırılması xüsusi əhəmiyyət daşıyır.



AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri Nazim Mənsimov AZƏRTAC-a açıqlamasında bildirib ki, Prezident İlham Əliyev Azərbaycan dilinin saflığının qorunmasının hər bir vətəndaşın, xüsusilə alimlərin, dilçilərin, yazıçıların, şairlərin və jurnalistlərin məsuliyyəti olduğunu dəfələrlə vurğulayıb. Dövlət başçısının bu çağırışı dilimizin milli kimliyin və tarixi yaddaşın fundamental komponenti kimi qorunmasının vacibliyini bir daha ön plana çıxarır.

Nazim Mənsimov qeyd edib ki, onun "Cənubi Azərbaycan şairlərinin farsdilli yaradıcılığına Azərbaycan dilinin təsiri" mövzusunda dissertasiya tədqiqatı məhz bu elmi istiqamətə həsr olunub. Tədqiqatın əsas məqsədi Azərbaycan və fars dilləri arasındakı qarşılıqlı əlaqələri ənənəvi yanaşmadan fərqli istiqamətdə araşdırmaq, Azərbaycan dilinin farsdilli poeziyada buraxdığı izləri üzə çıxarmaqdır. Onun sözlərinə görə, Azərbaycan və fars dillərinin qarşılıqlı təsiri uzun əsrləri əhatə edən mürəkkəb tarixi prosesdir. Bu əlaqələr indiyədək əsasən fars dilinin Azərbaycan dilinə təsiri kontekstində öyrənilib. Dissertasiyada isə məsələyə əks istiqamətdən yanaşılaraq Azərbaycan dilinin Cənubi Azərbaycan şairlərinin farsdilli əsərlərinə təsiri sistemli şəkildə tədqiq edilib. Araşdırma çərçivəsində farsdilli poetik mətnlərdə Azərbaycan mənşəli leksik vahidlər, frazeoloji ifadələr, sintaktik xüsusiyyətlər, folklor motivləri, onomastik vahidlər öyrənilib. Müəyyən edilib ki, bu elementlər yalnız dil faktları deyil, həm də şairlərin poetik təfəkküründü, fərdi üslubunu və milli-mədəni mənsubiyyətini ifadə edən vasitələrdir.

O bildirib ki, ana dilinin qorunması yalnız fərdi və akademik deyil, həm də mühüm ictimai və humanitar əhəmiyyət daşıyan məsələdir. Belə bir şəraitdə Cənubi Azərbaycan şairlərinin farsdilli yaradıcılığında Azərbaycan dilinin izlərinin araşdırılması xüsusi elmi və mədəni aktuallıq kəsb edir. Çünki ədəbi irs xalqın dil yaddaşını, dünyagörüşünü, tarixi təcrübəsini və milli-mədəni kimliyini yaşadan əsas mənbələrdəndir. Azərbaycan dilinin farsdilli poetik mətnlərdə qorunub saxlanılan elementlərinin üzə çıxarılması və sistemləşdirilməsi də bu yaddaşın elmi baxımdan sənədləşdirilməsinə xidmət edir. Onun qənaətinə görə, ana dilinin qorunması yalnız onun gündəlik ünsiyyətdə istifadəsinin təmin olunması ilə məhdudlaşmamalıdır. Dilin müxtəlif tarixi dövrlərdə yaratdığı ədəbi irsin, başqa dillərdə qələmə alınmış əsərlərdəki izlərinin və milli-mədəni təsir imkanlarının öyrənilməsi də bu prosesin ayrılmaz hissəsidir. O qeyd edib ki, dissertasiya işinin əsas elmi və ictimai əhəmiyyəti Azərbaycan dilinin farsdilli ədəbi mühitdəki rolunu elmi faktlar əsasında üzə çıxarmaq, Azərbaycan-fars dil və ədəbi əlaqələrinin öyrənilməsinə yeni istiqamət vermək, eyni zamanda, İranda yaşayan soydaşlarımızın dil və mədəni irsinin tədqiqinə töhfə verməkdən ibarətdir. Azərbaycan dilinin tarixini, təsir imkanlarını və ədəbi irsdəki izlərini öyrənmək, əslində, onun milli-mədəni gücünü və yaşamaq potensialını elmi əsaslarla nümayiş etdirmək deməkdir.

Bir ömrün söylədikləri...

İnsan ömrü özlüyündə bir dəyərdir. Lakin bu dəyərin mahiyyətini anlamaq, yaşanmış illərin arxasında dayanan mənanı bütün dərinliyi ilə dərk etmək heç də asan deyildir. Çünki insan ömrünün mənası onun nə qədər yaşadığı ilə deyil, necə yaşadığı, hansı amallara xidmət etdiyi, özündən sonra qoyub getdiyi mənəvi irslə də müəyyən olunur. Yaşanan illər zamanın ölçüsünə sığsa da, həmin illərdə görülən işlərin, insanların həyatına göstərilən təsirin, cəmiyyətə verilən töhfələrin mənəvi miqyasını bu ölçü ilə müəyyənləşdirmək mümkün deyildir. Xüsusilə ömrünü elmə, təhsilə və cəmiyyətə xidmətə həsr etmiş insanların həyatı bu həqiqəti daha aydın göstərir. Belə dəyərli ömürlərdən birini də görkəmli alim, fizika-riyaziyyat elmləri doktoru, professor Adilə Ziyad qızı Abbasova yaşamışdır.



Adilə Abbasova 1942-ci il avqustun 3-də Zəngilan rayonunun Pirçivan qəsəbəsində anadan olmuşdur. Elmə marağın mövcud olduğu bir ailədə böyümüşdür. Atası Ziyad Məmmədov kənd təsərrüfatının inkişafındakı xidmətlərinə görə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş, biologiya elmləri namizədi kimi tədqiqatlar aparmışdır. Atasının əkiz qardaşı Atlıxan Xanməmmədov da biologiya elmləri namizədi olmuş, uzun illər elmi müəssisələrdə çalışmışdır. Bu ailə ənənəsinin Adilə xanımın həyata və təhsilə münasibətinin formalaşmasında öz yeri olmuşdur. O, atasının və əmisinin elmi yolunu təkrar etməmiş, öz marağını fizikaya yönəltmişdir.

İbtidai təhsilini Pirçivanda almış, sonra Bakının 7 nömrəli orta məktəbində oxumuş və məktəbi gümüş medalla bitirmişdir. 1959-1964-cü illərdə Azərbaycan Dövlət Universitetinin Fizika fakültəsində təhsil almışdır. Universiteti bitirdikdən sonra Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutuna göndərilmiş, burada əmək fəaliyyətinə başlamışdır. 1966-1969-cu illərdə həmin institutun aspirantı olmuş, 1968-1969-cu illərdə Ukrayna Elmlər Akademiyasının Yarımkeçiricilər Fizikası İnstitutunda tədqiqat aparmışdır. 1970-ci ildə H.B. Abdullayevin elmi rəhbərliyi ilə "GaSe monokristallarında rekombinasiya və yapışma proseslərinin tədqiqi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş, fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsini almışdır. 1987-ci ildə doktorluq dissertasiyasını müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsinə, 1995-ci ildə isə professor elmi adına layiq görülmüşdür.

Adilə xanımın elmi fəaliyyətində yarımkeçiricilərin fiziki xassələrinin öyrənilməsi əsas yer tutmuşdur. GaSe monokristallarında rekombinasiya və yapışma prosesləri üzərində başladığı tədqiqatları sonrakı illərdə layvari kristalların öyrənilməsi ilə davam etmişdir. Onun elmi işləri sırasında bu kristalların əsasında fotohəssas quruluşların alınması, müxtəlif ionlaşdırıcı şüaların həmin kristallara və quruluşlara təsirinin tədqiqi, fotohəssaslığın mexanizminin müəyyənləşdirilməsi mühüm yer tutur. Bu istiqamətdə aparılan tədqiqatlarda layvari yarımkeçirici kristallar əsasında fotohəssas quruluşlar və ionlaşdırıcı şüalanmanın onların fiziki xassələrinə təsiri öyrənilmişdir.

Adilə Abbasova 150-dən çox elmi əsərin, beş ixtiranın və bir neçə monoqrafiyanın müəllifi olmuşdur.

Onun elmi fəaliyyətinin bir mərhələsi Moskva ilə bağlı olmuşdur. 1974-cü ildə oradakı Tətbiqi Fizika Elmi-Tədqiqat İnstitutuna ezam edilmiş, 1982-ci ildə müsabiqə yolu ilə həmin institutda baş elmi işçi vəzifəsini tutmuşdur. Doktorluq dissertasiyasını müdafiə etdikdən sonra laboratoriya müdiri seçilmiş və 1992-ci ilədək bu vəzifədə çalışmışdır. Moskva elmi mühitindəki fəaliyyəti, müxtəlif elmi-tədqiqat müəssisələri ilə əlaqələri onun peşəkar həyatının mühüm hissəsidir. Adilə xanım Almaniya, İngiltərə, Rusiya, Türkiyə, Yunanıstan, Fransa və digər ölkələrdə keçirilən beynəlxalq elmi konfranslarda iştirak etmiş, məruzələrlə çıxış etmişdir.

Adilə Abbasovanın pedaqoji əməyini də ayrıca xatırlamaq istərdim. O, Bakı Dövlət Universitetinin Yarımkeçiricilər fizikası kafedrasında dərs demiş, bakalavr və magistrantlara yarımkeçirici çeviricilər, nizamsız sistemlər fizikası, yarımkeçirici materialların və cihazların fiziki xassələrinin tədqiqi üsulları, səth və kontakt hadisələri haqqında mühazirələr oxumuşdur. Magistratura üçün fənn proqramlarının hazırlanmasında iştirak etmişdir. Üç elmlər namizədinə elmi rəhbərlik etmiş, bir elmlər doktorunun elmi məsləhətçisi olmuşdur. Uzun müddət AMEA-nın Radiasiya Problemləri İnstitutunda Dissertasiya Müdafiə Şurasının üzvü kimi çalışmışdır. Tədrislə məşğul olmaq onun üçün elmi fəaliyyətdən kənar bir iş deyildi: tədqiqat illərində qazandığı bilik və təcrübə bu dəfə tələbə və gənc mütəxəssislərlə ünsiyyətdə davam edirdi.

Adilə xanım Azərbaycan Respublikası Ali Sovetinin Aparatına dəvət edilmiş, Sosial-mədəni qanunvericilik məsələləri şöbəsinin Elm, təhsil və mədəniyyət bölməsinin müdiri təyin olunmuşdur. Sonrakı illərdə parlament aparatında müxtəlif rəhbər vəzifələrdə çalışmış, 1995-2020-ci illərdə Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri olmuşdur. Elm, təhsil, səhiyyə, mədəniyyət, qadın və uşaqların sosial müdafiəsi ilə bağlı qanunvericilik işlərinin hazırlanmasında iştirak etmişdir. Bu qədər məsuliyyətli inzibati fəaliyyətlə yanaşı, elmlə və universitetlə əlaqəsini qoruyub saxlaması onun ömür yolunda xüsusi diqqətə layiqdir. O, dövlət qulluğunda uzun illər çalışsa da, onu yetişdirən elmi mühitdən ayrılmamışdır.

Adilə xanım 1995-ci ildə Pekində keçirilən IV Ümumdünya Qadın Konfransında, 1996-cı ildə Türkiyədə qadın problemləri ilə bağlı "Habitat" beynəlxalq konfransında iştirak etmiş, Azərbaycanı müxtəlif beynəlxalq toplantılarda təmsil etmişdir. Dövlət qulluğundakı xidmətlərinə görə 2004-cü ildə 2-ci dərəcəli dövlət müşaviri ixtisas dərəcəsi almış, 2007-ci ildə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı, 2020-ci ildə isə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

Adilə xanımın xatirələrində Ümummilli Lider Heydər Əliyevin 20 Yanvar faciəsinə münasibəti xüsusi yer tuturdu. 1990-cı il yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyi qarşısında keçirilən etiraz tədbirində Adilə xanım da iştirak etmişdir. O, sonralar Heydər Əliyevin həmin gün nümayiş etdirdiyi mövqeyi, faciəni törədənləri qınamasını, günahkarların cəzalandırılmasını tələb etməsini, dərin ehtiramla xatırlayırdı. Xalqın ağır günündə göstərilən bu qətiyyəti Vətənə sevginin, millətin taleyinə həssas münasibətin nümunəsi kimi yaddaşında qoruyurdu. Adilə xanımın uzun illər sonra da həmin hadisəyə qayıtması onun üçün bu mövqenin mənəvi əhəmiyyətini göstərirdi.

Doğma Zəngilan onun yaddaşında həmişə yaşamışdır. 2020-ci ilin oktyabrında rayonun işğaldan azad edilməsi Adilə xanım üçün böyük sevinc olmuşdur. 2021-ci il oktyabrın 20-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Zəngilanda ictimaiyyət nümayəndələri ilə görüşündə iştirak etmiş, bu görüşün təəssüratlarını AZƏRTAC-la bölüşmüşdür. "Mən bu torpaqda doğulmuşam, uşaqlıq illərim burada keçib", deyə o, Pirçivanda aldığı ibtidai təhsili, atasının Zəngilan rayonunda çalışdığı illəri xatırlamışdır. Görüş zamanı rayonda aparılan quruculuq işlərindən danışılmış, doğma torpaqda "Qarabağ şikəstəsi" səslənmişdir. Adilə xanımın müsahibəsindəki sevinc və qürur onun yaşadığı uzun ayrılıqdan sonra doğma yurda qovuşmasının təbii ifadəsi idi.

Ailəsinin elmi ənənələri ilə bağlı bir hadisəni də xatırlatmaq istəyirəm. 2012-ci il mayın 17-də AMEA Rəyasət Heyətinin binasında Ziyad Məmmədov və Atlıxan Xanməmmədovun həyatına və elmi fəaliyyətinə həsr edilmiş "Əkizlər" bədii-sənədli filminin təqdimatı keçirilmişdir. Həmin dövrdə Akademiyanın birinci vitse-prezidenti kimi tədbirdə mən də iştirak etmiş, çıxış edərək bu iki alimin ömür yolundan, elmi əməyindən danışmışdım. Adilə xanım filmin yaradıcı heyətinə və tədbir iştirakçılarına təşəkkürünü bildirmişdi. İndi o təqdimatı xatırlayanda bir ailənin müxtəlif nəsillərində elmə bağlılığın necə davam etdiyini düşünürəm. Adilə xanımın özünün fizikada keçdiyi yol həmin ailə tarixinin ayrıca və dəyərli səhifəsidir.

Onu da qeyd edim ki, Adilə xanım Fizika İnstitutunda da çalışırdı. O, elmi fəaliyyəti ilə yanaşı, institutun ictimai-mədəni həyatında fəal iştirak edir, Ümummilli Liderimiz Heydər Əliyevin anım günlərinə həsr olunmuş tədbirlərdə, azərbaycançılıq dəyərlərinin təbliği istiqamətində görülən işlərdə yaxından iştirak edirdi.

Adilə xanım həyatı sevirdi. O, həm də çalışdığı Fizika İnstitutunu, onun dəyərli kollektivini həyatı qədər sevirdi. Fizika İnstitutu onun üçün sadəcə iş yeri deyil, özünü doğma hiss etdiyi, mənəvi bağlılıq duyduğu bir mühit idi. Bu sevgi qarşılıqlı idi. Fizika İnstitutu da Adilə xanımı sevirdi. Onun əziz xatirəsi institutun kollektivinin, həmkarlarının və onu tanıyan insanların yaddaşında daim yaşayacaqdır.

Adilə xanımın vəfatından duyduğumuz dərin kədəri bölüşür, ailəsinə, doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

Arif HƏŞİMOV
AMEA-nın akademik-katibi, akademik

Xalq şairi Sabir Rüstəmxanlının 80 yaşı tamam olub. Bu tarix təkcə şəxsi bir yubiley kimi qeyd olunmur - o, həm də Azərbaycan poeziyasının bütöv bir dövrünə, XX əsrin ikinci yarısından bu günə qədər uzanan ədəbi-ictimai prosesə yenidən nəzər salmaq üçün əlverişli bir məqamdır. Belə tarixlər adətən bir yazıçının yaradıcılığını təkrar oxumağa, onun sözünün zaman içində necə yaşadığını görməyə imkan verir. Sabir Rüstəmxanlının timsalında isə bu, sadəcə ədəbi deyil, həm də mənəvi bir hesabatdır - çünki onun yaradıcılığı Azərbaycanın son yarım əsrlik taleyi ilə sıx bağlıdır.



Vətənin və yaddaşın şairi

Sabir müəllimi tanıyanlar yaxşı bilir ki, o, hələ Bakı Dövlət Universitetinin tələbəsi olarkən indiki "Ədəbiyyat" qəzetinin redaksiyasında işə başlamışdır. Bu, sadəcə bioqrafik fakt deyil - gənc yaşlarından mətbuatla, sözün ictimai gücü ilə təmasda olması onun sonrakı yaradıcılığına da öz izini salmışdır. Elə o vaxtdan etibarən o, həm sənətkar, həm də ictimai xadim kimi tanınmağa başlamışdır. Görkəmli ədəbiyyatşünas akademik İsa Həbibbəyli onu "milli ruhlu şair və alim, vətəndaş publisist və ictimai xadim" adlandırır. Bu tərif təsadüfi deyil: Sabir Rüstəmxanlının yaradıcılığında bədii söz heç vaxt ictimai mövqedən ayrılmamış, əksinə, onunla üzvi şəkildə birləşmişdir.

Onun ictimai-siyasi fəallığı da bu baxımdan diqqətəlayiqdir. Sabir Rüstəmxanlı təkcə kabinetində yazan şair olmamış, xalqın milli özünüdərk prosesində bilavasitə iştirak etmişdir. 1988-ci ildə onun "Ömür kitabı" əsəri əl-ələ gəzir, xalqın milli-azadlıq duyğularına səs verirdi. Bu, tarixi baxımdan çox mühüm bir məqamdır - Azərbaycanda milli oyanış prosesinin başladığı, insanların öz kimliyini, tarixini və hüquqlarını yenidən kəşf etdiyi bir dövr idi, və Sabir Rüstəmxanlının sözü məhz bu prosesin bir hissəsinə çevrilmişdi. Elə həmin dövrdə o, "qan yaddaşı" ifadəsini ədəbiyyatımıza gətirdi. Bu söz birləşməsi indi demək olar ki, hamı tərəfindən işlədilir, lakin çoxları onun ilk dəfə haradan gəldiyini bilmir. Bu, bir şairin dilə bəxş etdiyi ifadənin sonradan bütöv bir xalqın şüurunda necə kök saldığının gözəl nümunəsidir.

Vətən: torpaqdan çox - yaddaş. Sabir Rüstəmxanlının şeirlərində Vətən anlayışı adi mənada başa düşülən coğrafi məkandan - xəritədə çəkilmiş sərhəddən - çox-çox geniş bir mahiyyət daşıyır. Onun üçün Vətən eyni zamanda tarixdir, dildir, yaddaşdır - keçmişlə gələcəyi bir-birinə bağlayan mənəvi körpüdür. Başqa sözlə desək, Vətən onun poeziyasında statik bir anlayış deyil, nəsildən-nəslə ötürülən canlı bir varlıqdır.

"Vətən" şeirində bu fikir çox sadə, amma dərin sözlərlə ifadə olunub:

"Bir ələçim buluddu,
Bir ömür umuddu,
Bir içim sudu".

Diqqət etsək, şair burada Vətəni heç bir mürəkkəb fəlsəfi termin işlətmədən, ən adi, gündəlik təbiət obrazları vasitəsilə canlandırır - bulud, umud, su. Elə bu üç sadə obrazla Vətən mücərrəd anlayışdan çıxıb insanın gündəlik nəfəs aldığı, ümid bağladığı, susuzluğunu yatırdığı canlı bir varlığa çevrilir. Bu, əslində, xalq poeziyasına xas olan bir üsuldur: böyük fikirləri kiçik, əl-ayaq tutulan obrazlarla ifadə etmək.

Şeirdə Vətən eyni zamanda tarixi hadisələrlə də birləşir - 21 Azər hadisələri, Cavad xanın faciəli taleyi, Sabirin məşhur "Fəxriyyə"si kimi ədəbi-tarixi işarələr buraya daxil edilir. Bununla yanaşı, mədəni irs də bu vahid mənəvi məkana qoşulur: Füzulinin məzarı, Aşıq Ələsgərin sazı, qədim əlyazmalar. Beləliklə, bir neçə misrada tarix, xalq, ədəbiyyat və Vətən bir-birindən ayrılmaz vahid mənəvi məkanda qovuşur. Bu üsul Sabir Rüstəmxanlı poeziyasının səciyyəvi cəhətlərindən biridir - o, ayrı-ayrı tarixi və mədəni faktları sadalamır, onları vahid bir emosional-mənəvi axına gətirir.

Ana dilinə həsr olunan misralar. Sabir Rüstəmxanlı yaradıcılığında dil məsələsi ayrıca və olduqca mühüm yer tutur. Bu təsadüfi deyil - Azərbaycan ədəbiyyatında dil məsələsi həmişə sadəcə linqvistik deyil, həm də siyasi-mənəvi məzmun daşımışdır, xüsusən sovet dövründə, ana dilinin məktəblərdə, idarələrdə arxa plana keçirildiyi illərdə. Sabir Rüstəmxanlı üçün ana dili sadəcə ünsiyyət vasitəsi deyil - xalqın tarixini, mənəviyyatını və kimliyini qoruyan canlı, döyüşkən bir varlıqdır.

"Sağ ol, Ana dilim" şeirində şair dilini qılınca, bayrağa bənzədir, onu xalqın ən qiymətli sərvəti kimi tərənnüm edir:

"Döyüşdə qılınctək sıyrıldı qından,
Başımın üstündə bayrağım oldu,
Torpağım ikiyə bölünən zaman
Dilim bölünməyən torpağım oldu".

Bu misralarda xüsusilə diqqəti çəkən məqam ondan ibarətdir ki, şair dili hərbi-mübarizə obrazları ilə - qılınc, bayraq - təsvir edir. Bu, təsadüfi bədii üsul deyil: burada dil müdafiə silahına, milli mövcudluğun son sərhədinə çevrilir. Ən diqqətəlayiq misra isə sonuncudur - "Torpağım ikiyə bölünən zaman / Dilim bölünməyən torpağım oldu". Burada şair çox güclü bir paradoksdan istifadə edir: fiziki torpaq bölünə bilər, işğal oluna bilər, sərhədlərlə parçalana bilər, lakin dil - mənəvi torpaq olaraq - bölünməzdir. Bu fikir, xüsusən Azərbaycanın tarixi taleyini - ölkənin şimal və cənuba bölünməsini - nəzərə aldıqda, xüsusi ağırlıq qazanır.

Söz və məsuliyyət.Şairin yaradıcılığında "söz" anlayışı da xüsusi çəkiyə malikdir. Sabir Rüstəmxanlı üçün söz sadəcə kommunikasiya vasitəsi deyil, əxlaqi məsuliyyət daşıyan bir kateqoriyadır. O, sözün dəyərdən düşməsindən, boş və məsuliyyətsiz işlədilməsindən dərin narahatlıq keçirir. Bu mövqe klassik Azərbaycan ədəbiyyatının böyük ənənəsi ilə bağlıdır - Füzuli, Nəsimi, Xətai kimi sənətkarların yaratdığı ənənədə söz həmişə müqəddəs, ağır məsuliyyət tələb edən bir vasitə kimi qəbul olunub. Sabir Rüstəmxanlı bu ənənəni davam etdirərək yazır:

"Söz ki ucuzlaşıb dəyərdən düşür,
Elə bil bir igid yəhərdən düşür".

Bu beytdə istifadə olunan bənzətmə çox təsirlidir: sözün dəyərdən düşməsi igidin atdan - döyüş yoldaşından - yəhərdən düşməsi ilə müqayisə olunur. Bu, sadəcə bədii bəzək deyil - burada söz döyüşçü, mübariz statusuna yüksəldilir, onun "dəyərdən düşməsi" isə şəxsi ləyaqətin, mənəvi mövqenin itirilməsi kimi qiymətləndirilir. Beləliklə, şair üçün doğru, məsuliyyətli söz demək - döyüş meydanında dayanmaq kimi bir şeydir.

Kök və yaddaş.Sabir Rüstəmxanlının poeziyasında tez-tez rast gəlinən başqa bir mühüm obraz da "kök"dür. Bu obraz insanın öz keçmişinə, ailəsinə, xalqına, nəsil-nəsəbinə bağlılığını ifadə edir. "Kök" anlayışı burada həm hərfi (mənşə, nəsil), həm də məcazi mənada (mənəvi dayaq nöqtəsi) işlənir. Şair kökündən qopan, öz keçmişi ilə əlaqəsini itirən insanın taleyini acı, kəskin bir dillə təsvir edir:

"Qardaşı olmayanlar özgəni qardaş tutar,
Qardaşı ola-ola yetim qaldıq dünyada".

Bu beyt xüsusilə güclü bir ictimai-tarixi mesaj daşıyır. Burada söhbət təkcə fərdi münasibətlərdən getmir - bu, daha geniş mənada, bölünmüş, parçalanmış bir xalqın taleyinə işarədir: qohumu, qardaşı olduğu halda ondan ayrı düşmüş, kimliyini tam bərpa edə bilməyən insanların faciəsi. "Qardaşı ola-ola yetim qaldıq" ifadəsi paradoksal görünsə də, tam dəqiqliklə real vəziyyəti əks etdirir - kökdən, tarixi bağlardan qopmaq, hətta qohumluq əlaqələri formal olaraq mövcud olsa belə, insanı mənəvi yetimliyə məhkum edir.

Sabir Rüstəmxanlı poeziyasının üslub xüsusiyyətləri.Şairin işlətdiyi obrazların hamısını - Vətən, dil, söz, kök - bir yerə gətirdikdə, Sabir Rüstəmxanlı poeziyasının bir neçə mühüm üslub xüsusiyyəti üzə çıxır. Birincisi, onun şeiri xalq danışıq dilinə, folklor ənənəsinə yaxındır - mürəkkəb, ağır poetik konstruksiyalar yerinə sadə, hamı üçün anlaşılan söz və ifadələrdən istifadə olunur. İkincisi, bu sadəlik heç vaxt fikrin dərinliyini azaltmır - əksinə, sadə obrazlar vasitəsilə çox böyük, fəlsəfi-tarixi mövzular işlənir. Üçüncüsü, onun poeziyasında fərdi lirika ilə ictimai-vətəndaşlıq mövqeyi ayrılmaz şəkildə birləşir - şəxsi hiss həmişə xalqın taleyi ilə bağlanır.


Nəticə olaraq deyə bilərik ki, Sabirin sənəti - xalqın sənətidir. Sabir Rüstəmxanlının poeziyası sadə xalq dilindən qidalanır, amma bu sadəlik dərin fəlsəfi fikirlər daşıyır. Onun şeirlərində Vətən, ana dili, tarix, yaddaş və söz bir-biri ilə üzvi şəkildə bağlıdır - bu anlayışlar ayrı-ayrı mövzular kimi deyil, vahid mənəvi sistemin hissələri kimi çıxış edir. Klassik Azərbaycan poeziyasının mənəvi-estetik dəyərlərini müasir dövrün problemləri ilə birləşdirən şair, bu gün də oxucusuna sadə, təsirli və dərin bir dillə müraciət edir.

80 illik yubiley münasibətilə Xalq şairi Sabir Rüstəmxanlıya uzun ömür və yaradıcılıq həvəsi,uğurları arzulayır, onun sözünün gələcək nəsillərə də işıq saçacağına inanırıq.

Əbülfəz QULİYEV
AMEA-nın müxbir üzvü

Ümumdünya Elm Günü

Noyabrın 10-u Ümumdünya Elm Günüdür. Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının (UNESCO) təşəbbüsü ilə təsis edilən bu əlamətdar gün elmin cəmiyyətin inkişafındakı roluna diqqət çəkmək, elmi biliklərin geniş ictimaiyyət arasında yayılmasını təşviq etmək və elmi nailiyyətlərin gündəlik həyatımız üçün əhəmiyyətini ön plana çıxarmaq məqsədi daşıyır.



Ümumdünya Elm Günü elmi fəaliyyətlə cəmiyyət arasında əlaqələrin gücləndirilməsi, vətəndaşların elmi yeniliklər və müasir tədqiqatlar barədə məlumatlandırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu gün, həmçinin alimlərin planetimizin qorunması, qlobal problemlərin həlli və daha dayanıqlı cəmiyyətlərin qurulması istiqamətindəki fəaliyyətinin vacibliyini vurğulayır.

2026-cı ildə Ümumdünya Elm Gününün mövzusu "Elmi diplomatiya vasitəsilə ortaq zəmin" olaraq müəyyənləşdirilib. Mövzu elmin dövlətlər və xalqlar arasında əməkdaşlığın möhkəmləndirilməsində, ortaq problemlərin həllində və beynəlxalq dialoqun inkişafında rolunu diqqətə çatdırır.

Azərbaycanda elmin inkişafı və yeni tədqiqat istiqamətləri

Azərbaycanda elmin inkişafı dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Ölkədə elmi potensialın gücləndirilməsi, tədqiqat infrastrukturunun müasirləşdirilməsi, elmi müəssisələrlə ali təhsil ocaqları arasında əlaqələrin genişləndirilməsi, eləcə də yerli alimlərin beynəlxalq elmi məkanda təmsilçiliyinin artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Azərbaycan elminin təşkilati əsaslarının formalaşmasında mühüm mərhələ 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının yaradılması olub. Bu hadisə ölkədə elmi tədqiqatların institusional əsasda inkişafına, müxtəlif elm sahələri üzrə ixtisaslaşmış institutların formalaşmasına və elmi kadr potensialının gücləmməsinə təkan verib. Bu gün həmin ənənələr Azərbaycan Milli Elmlər Akademiyası və Elm və Təhsil Nazirliyinin tabeliyindəki elmi müəssisələr, ali təhsil ocaqları və tədqiqat mərkəzləri tərəfindən davam etdirilir.

Elmi fəaliyyətin müasir tələblərə uyğunlaşdırılması məqsədilə rəqəmsallaşma və süni intellekt texnologiyalarının tədqiqat proseslərinə tətbiqi də prioritet istiqamətlərdəndir. Prezident İlham Əliyevin 2025-ci il 19 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyası" bu sahədə yeni imkanların formalaşdırılması üçün mühüm strateji sənəddir. Strategiyanın istiqamətlərinə uyğun olaraq AMEA-da Rəqəmsal Akademiya, Süni İntellekt və Elektron Xidmətlər Mərkəzi yaradılıb, elmi müəssisələrdə rəqəmsal elm və süni intellekt üzrə struktur bölmələrin fəaliyyəti genişləndirilib.

Beynəlxalq elmi bazalara çıxış və tədqiqatçıların stimullaşdırılması

Azərbaycan elminin beynəlxalq elmi mühitə inteqrasiyasında nüfuzlu elmi informasiya bazalarına çıxış xüsusi əhəmiyyət daşıyır. 2026-cı ildə "Elsevier" və "Clarivate Analytics" şirkətləri ilə yenilənmiş müqavilələr əsasında 150-dən çox elm və ali təhsil müəssisəsinin "Scopus", "Web of Science", "ProQuest Central" və "Cambridge University Press" resurslarından istifadəsi təmin edilib.

Alimlərin elmi fəaliyyətinin stimullaşdırılması məqsədilə maddi mükafatlandırma mexanizmi də təkmilləşdirilib. 2026-cı ildə nazirliyin tabeliyindəki 14 elmi müəssisədən 420-dən çox tədqiqatçı elmi göstəricilərinə əsasən mükafatlandırılıb. Ümumilikdə, yeni mexanizm çərçivəsində 500-dək tədqiqatçının bu təşviq sisteminə cəlb olunması nəzərdə tutulub.

Elmi nəşrlərin beynəlxalq səviyyədə təmsilçiliyi də diqqət çəkən göstəricilərdən biridir. Nazirliyin hesabatına əsasən, 2025-ci ildə "Scopus" və "Web of Science" bazalarında indekslənən Q1 kateqoriyalı jurnallarda 3214, Q2 kateqoriyalı jurnallarda isə 1358 elmi nəşr dərc olunub. 2026-cı ilin hesabat dövründə isə müvafiq göstəricilər 1854 və 833 olub. Bundan əlavə, elmi bazalardan və süni intellekt əsaslı tədqiqat alətlərindən istifadə bacarıqlarının artırılması məqsədilə təşkil edilən 30-dan çox təlimdə 1500-dən artıq tədqiqatçı iştirak edib.

Gənc alimlərin hazırlanması və elmi kadr potensialı

Elmin davamlı inkişafı yüksəkixtisaslı elmi kadrların hazırlanması ilə birbaşa bağlıdır. Dövlət Statistika Komitəsinin 2026-cı ilin əvvəlinə olan məlumatına əsasən, ölkədə 114 müəssisə və təşkilatda, o cümlədən 40 ali təhsil müəssisəsi və 74 elmi müəssisədə doktorantura proqramları fəaliyyət göstərib. Bu proqramlarda 3123 nəfər təhsil alıb. Doktorantların 50,9 faizini qadınlar təşkil edib.

Elmi kadr hazırlığında beynəlxalq təcrübənin mənimsənilməsi də mühüm yer tutur. "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində 2025-2026-cı tədris ilindən etibarən ilk dəfə doktorantura səviyyəsi üzrə də qəbul aparılıb. Bu addım Azərbaycan gənclərinin dünyanın aparıcı universitetlərində elmi araşdırmalara cəlb olunması və gələcək tədqiqatçı nəslinin yetişdirilməsi baxımından əhəmiyyətlidir.

Azərbaycan alimlərinin beynəlxalq elmi nailiyyətləri

Azərbaycan alimlərinin beynəlxalq elmi əməkdaşlıq çərçivəsində əldə etdikləri nəticələr ölkənin elmi potensialının göstəricilərindəndir. Son dövrlərdə informasiya texnologiyaları, süni intellekt, kimya, fizika, biologiya, tibb və digər istiqamətlərdə aparılan tədqiqatların nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunması bu sahədə əməkdaşlığın genişləndiyini göstərir.

Bunun nümunələrindən biri 2026-cı il noyabrın əvvəlində Azərbaycan və Avstraliya alimlərinin birgə tədqiqatıdır. Beynəlxalq tədqiqat qrupu süni intellekt və verilənlərin intellektual analizi sahəsində klasterləşmə prosesinin nəticələrini daha dəqiq qiymətləndirməyə imkan verən yeni riyazi yanaşma hazırlayıb. Tədqiqatın nəticələri süni intellekt sahəsində nüfuzlu nəşrlərdən biri olan "Pattern Recognition" jurnalında dərc edilib. Təklif olunan metodun tibb, kibertəhlükəsizlik, ağıllı şəhərlər, kosmik tədqiqatlar və kənd təsərrüfatı kimi sahələrdə tətbiq imkanları var.

Digər diqqətçəkən nümunə Azərbaycan alimlərinin süni intellekt sistemləri vasitəsilə dezinformasiyanın aşkarlanması sahəsində apardıqları araşdırmadır. Tədqiqat nəticəsində mövcud sistemlərin mətnin həqiqiliyini müəyyənləşdirərkən üzləşdiyi metodoloji məhdudiyyətlər aşkar edilib və onların aradan qaldırılması üçün yeni yanaşma təklif olunub. Araşdırmanın nəticələri Q1 kateqoriyalı beynəlxalq elmi jurnalda dərc edilib.

Elmi diplomatiya və beynəlxalq əməkdaşlıq

2026-cı ildə Ümumdünya Elm Gününün "Elmi diplomatiya vasitəsilə ortaq zəmin" mövzusu təsadüfi seçilməyib. İqlim dəyişmələri, enerji təhlükəsizliyi, ərzaq təminatı, pandemiyalar, biomüxtəlifliyin qorunması və süni intellektin yaratdığı çağırışlar dövlətlər arasında elmi əməkdaşlığı zəruri edir. Bu problemlərin həlli yalnız ayrı-ayrı ölkələrin deyil, beynəlxalq elmi ictimaiyyətin birgə səylərini tələb edir.

Azərbaycanın da beynəlxalq elmi əlaqələrinin genişləndirilməsi, xarici elmi mərkəzlərlə birgə layihələrin həyata keçirilməsi, alim və tədqiqatçıların təcrübə mübadiləsində iştirakı bu baxımdan əhəmiyyət daşıyır. Elmin diplomatik münasibətlərdə körpü rolunu oynaması ölkələr arasında qarşılıqlı etimadın möhkəmləndirilməsinə və qlobal problemlərin həllinə töhfə verir.

